DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (315) / OKTYABR 2017-Cİ İL




Bir çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Ancaq üç ölkə göstərdi və sübut etdi ki, bu, mümkündür. Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır. Əminəm ki, regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olacaqlar, bir-birini dəstəkləyəcəklər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir.

... Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəklər. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcək. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır və öz maliyyə resurslarını ortaya qoyan ölkədir.

... Bakı-Tbilisi-Qars tarixi layihədir, qlobal layihədir. Bu layihə ölkələri bir-birinə daha yaxın edəcək. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olmuşdur. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk.

**Prezident İlham Əliyev**
**Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilmiş təntənəli mərasimdəki çıxışından**
**Bakı şəhəri, 30 oktyabr 2017-ci il.**

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan tarixən çoxkonfessiyalı məkan olmuşdur. Müasir dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin birgəyaşayış normasına çevrilmişdir. Hazırda Azərbaycan nəinki Cənubi Qafqazda, bütün Yaxın və Orta Şərqdə İslam mədəniyyətinin, tolerant mühitin formalaşdığı, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin effektiv vəhdətinin mövcud olduğu nümunəvi ölkələrdən biridir.

Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılsın.

2. "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi" təsdiq edilsin.

3. Müəyyən edilsin ki:

3.1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu (bundan sonra – Fond) mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılma-

davamı səh. 2



**MÜBARİZ QURBANLI SƏUDİYYƏ ƏRƏBİSTANINDA SƏFƏRDƏDİR**

Səh. 4



**"İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"**

Səh. 6



**MULTİKULTURALİZM SİYASƏTİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN NÜMUNƏSİ**

Səh. 14

# DƏMİRÇİ KƏND MƏSCİDİ BƏRPA OLUNUB



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 2-də Şamaxı rayonunun Dəmirçi kəndində görülən işlərlə tanış olublar.*

Dəmirçi Şamaxının ən qədim kəndlərindən biridir və onun tarixi XV əsrə gedib çıxır. Qədimdə adı Güneyçay olan kənddə dəmirçilik sənəti geniş yayıldığından sonralar buraya Dəmirçi adı verilib. Bir vaxtlar qədim İpək yolunun kənarında yerləşən kənddə bir neçə karvansara da olub. Lakin karvansara da daxil olmaqla Dəmirçidəki qədim tikililərin çoxu sovet hakimiyyəti illərində dağıdılıb. Maraqlı adət-ənənələri, özünəməxsus mədəniyyəti olan yerli əhali elmə, təhsilə böyük maraq göstərir. Odur ki, kəndin bərpası və tarixi simasının qorunması ilə bağlı son illərdə həyata keçirilən işlər ölkəmizin bu nadir abidəsini qoruyub saxlamaq və onu gələcək nəsillərə çatdırmaq istiqamətində mühüm tədbirlərdən biridir.

Görülən işlər bir neçə istiqamətdə həyata keçirilib və kompleks xarakter daşıyıb. İlk növbədə, kənddəki məscid bərpa olunub. Ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi 755-ci ildə tikilib və Prezident İlham Əliyevin göstərişi ilə bərpa edilib. Bu da ondan irəli gəlir ki, dövlətimizin başçısı bütün ölkədə qədim və tarixi əhəmiyyəti olan dini ocaqların bərpasına diqqətlə yanaşır. Bir neçə il öncə Yaxın Şərqin ən qədim məscidlərindən olan Şamaxı Cümə məscidində bərpa və yenidənqurma işlərinin aparılması da bu məqsədə xidmət edirdi.

Dövlətimizin başçısı məscidin axundu Nəbi İsgəndərov ilə söhbət etdi.

**Axund Nəbi İsgəndərov:** Möhtərəm cənab Prezident, bizim Dəmirçi kəndinə xoş gəlmisiniz! Bizim bu məscidin keçmiş forması belə olub. Yəni, uzun illər ibadətə yararsız olub, ibadət edə bilməmişik. Sizin sayənizdə bu məscidi bugünkü vəziyyətə gətirib bizim istifadəmizə veriblər. Biz Sizdən çox razıyıq, Allah Sizi, ailənizi qorusun. Çox sağ olun ki, bizə bu məsciddə belə gözəl şərait yaratdınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bu, bizim tarixi abidəmiz, tarixi irsimizdir, qədim məsciddir. Mənə məlumat verilib ki, bu məscid 755-ci ildə tikilib, ölkəmizin və müsəlman aləminin ən qədim məscidlərindən biridir. Bilirsiniz ki, Azərbaycanda bütün tarixi abidələr, məscidlər bərpa edilir, əsaslı təmir olunur, yeni məscidlər tikilir. Onların arasında əlbəttə ki, Şamaxı Cümə məscidi xüsusi yer tutur. Çünki bu, ölkəmizin ən qədim məscididir və bir neçə il bundan əvvəl biz bu məscidin yenidən qurulmasını təmin etdik. Məscid yenidən bərpa olundu, əlavə binalar tikildi. Yəni, Şamaxı Cümə məscidi tam şəkildə əsaslı təmir olunmuşdur və demək olar ki, məscidin böyük bir hissəsi yenidən qurulmuşdur.

Şamaxı rayonunda tarixi-dini abidələr çoxdur, onlardan biri də təbii ki, bu məsciddir. Ona görə əlbəttə, bizim borcumuz idi ki, bu qədim tarixi-dini abidəni bərpa edək, qapılarını dindarların üzünə açaq. Çox şadam ki, biz buna nail ola bilmişik. Bu, məscidin köhnə şəkilləridir, demək olar ki, burada ibadət etmək qeyri-mümkün idi. İndi isə biz məscidi bərpa etmişik. Bərpa zamanı qədim daşlardan istifadə olunub, yəni, məscidin tarixi görkəmi tam qorunub. Bu, təkcə sizin kənd üçün, Şamaxı üçün yox, bütün Azərbaycan, bütün müsəlman aləmi üçün çox əlamətdar hadisədir. Xüsusilə də bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Bax, bu gözəl tarixi-dini abidəni biz bu il istifadəyə veririk.

**Axund Nəbi İsgəndərov:** Bu Məhərrəm ayında bizə belə gözəl hədiyyəni etdiyinizə görə Sizə bir daha təşəkkür edirik, bunun savabı hər şeydən üstündür. Biz bilirik ki, Siz də, ailəniz də dinə, Allaha bağlı insanlarsınız. İcazə verin, Sizə müqəddəs "Qurani Kərim" kitabını hədiyyə edək. Allah Sizdən razı olsun. Allah Sizi bizim başımızın üstündən əskik etməsin.

Dəmirçi məscidində dövlətimizin başçısına "Quran" hədiyyə edildi.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Dəmirçi kəndinə də yol çəkilib. Xoşunuza gəlir? İşıq, qaz, su, indi rahat yol, körpü.

**Axund Nəbi İsgəndərov:** Çox sağ olun, cənab Prezident, saymaqla qurtaran deyil, biz sadalamadıq ki, vaxtınızı alarıq.

**Prezident İlham Əliyev:** Buradan da Lahıca qədər yol çəkiləcək. Sizin Lahıcda da qohumlarınız yaşayır, indi onlara tez-tez baş çəkərsiniz.

**Axund Nəbi İsgəndərov:** Lahıca getmək üçün 70-80 kilometr yol qət edirdik. İndi 20 kilometr gedəcəyik. Bu, Sizin sayənizdə olacaq.

**Prezident İlham Əliyev:** Mən tapşırıq vermişəm, bu il işlər başlayacaq və yol gələn il istifadəyə veriləcək. Beləliklə, Dəmirçi kəndinə maraq böyük olacaq, turistlər gələcək. Necə ki, il ərzində Lahıca minlərlə turist gəlir, buraya da gələcək. Bu, həm yeni iş yerləri, həm də dolanışığın yaxşılaşması deməkdir. Dəmirçi kəndi ölkəmizin ən gözəl turizm mərkəzlərindən birinə çevriləcək. Dünya da biləcək ki, Azərbaycanda, Şamaxıda belə bir kənd və onun qədim məscidi var, burada gözəl insanlar yaşayırlar. Bax, Azərbaycanın gözəlliyi və qüdrəti bundan ibarətdir.

**Axund Nəbi İsgəndərov:** Çox sağ olun, cənab Prezident, bunlar hamısı Sizin sayənizdə mümkün olub. Biz Sizdən çox razıyıq.

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

əvvəli səh. 1

sına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən qeyri-kommersiya hüquqi şəxsdir;

3.2. Fondun saxlanması və fəaliyyətinin təmin edilməsi dövlət büdcəsindən ayrılan vəsait, habelə kreditlər, qrantlar və texniki yardımlar, fiziki və hüquqi şəxslərin ianələri və qanuna uyğun əldə etdiyi digər vəsaitlər hesabına həyata keçirilir;

3.3. Fondun nizamnamə kapitalı 100 000 (bir yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.4. Fondun fəaliyyətinə ümumi nəzarəti Fondun beş üzvdən ibarət Himayəçilik Şurası həyata keçirir;

3.5. Fondun fəaliyyətinə cari rəhbərliyi Fondun İcraçı direktoru həyata keçirir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.1.2. Fondun icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

4.1.3. Fondun yenidən təşkili və ləğvi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Fondun işçilərinin say həddinin və əməkhaqlarının müəyyən edilməsi;

4.3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.4. Fondun fəaliyyətini təmin etmək məqsədi ilə üç ay müddətində onun inzibati bina ilə təmin olunması üçün tədbirlər görsün;

5.5. bu Fərmanla təsdiq edilən Nizamnamənin 3.1-ci bəndinə uyğun olaraq, Fondun işçilərinin say həddini və əməkhaqlarını bir ay müddətində təsdiq etsin.

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3.3-cü bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

7.1. Fondun dövlət qeydiyyatına alınması üçün tədbirlər görsün;

7.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 oktyabr 2017-ci il.**

# DAŞKƏNDDƏ “İSLAM HƏMRƏYLİYİ ÖZBƏKİSTAN-AZƏRBAYCAN DOSTLUĞU TİMSALINDA” MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Özbəkistan Nazirlər Kabineti yanında Dini İşlər üzrə Komitə və Özbəkistan Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə keçirilən konfransda Milli Məclisin deputatları, tanınmış elm, mədəniyyət və din xadimlərindən ibarət nümayəndə heyəti, Türkiyənin din xadimləri iştirak ediblər. Azərbaycan nümayəndə heyətini QMİ sədri şeyxülislam Allahşükür Paşazadə, DQİDK sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, deputat Cavanşir Paşazadə və digərləri təmsil ediblər. Konfransa Rusiyanın Moskva və Sankt-Peterburq şəhərlərindən, Qaraçay-Çərkəz Respublikasından və digər müsəlman subyektlərindən, həmçinin bir sıra beynəlxalq təşkilatlardan nümayəndələr də qatılıblar. Tədbirdə Özbəkistan tərəfdən Baş nazir Abdulla Aripov, Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmanxon Alimov, Nazirlər Kabineti yanında Dini İşlər üzrə Komitənin sədri Ortikbek Yusupov və digərləri iştirak ediblər.

Qurandan ayələrin oxunması ilə başlayan konfransda Özbəkistan Prezidentinin müşaviri Alişer Sultanov dövlət başçısı Şavkat Mirziyayevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir ki, dövlətlərimiz və xalqlarımız ta qədimdən dostluq edib və bundan sonra da edəcəklər. Daşkənd, Səmərqənd, Buxara və Xivə şəhərləri İslam mədəniyyətinin mərkəzləri kimi məşhurdur. Özbəkistanın İmam Buxari, Maturidi, Termezi kimi məşhur şəxsiyyətləri olub və onları bütün dünyada tanıyırlar. Ölkəmiz milli-mənəvi dəyərlərə hörmət edən ölkə kimi tanınıb. Hazırda Özbəkistanda 130 xalq və millətin, 16 konfessiyanın nümayəndələri sabitlik və əmin-amanlıq şəraitində yaşayırlar. Daşkənddə İslam İnstitutu və İslam Universiteti fəaliyyət göstərir.

Konfransda çıxış edən şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ili ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edib və bu istiqamətdə müxtəlif tədbirlər keçirilir. Əməkdaşlığımızın tarixi qədimdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Özbəkistanın birinci Prezidenti İslam Kərimov ölkələrimiz arasında münasibətləri daha yüksəyə qaldırıblar. Bu əlaqələr hazırda prezidentlər İlham Əliyev və Şavkat Mirziyayev tərəfindən uğurla davam etdirilir.

Sonra Mübariz Qurbanlı Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir ki, Özbəkistanda - müxtəlif mədəniyyətlərin sülh şəraitində mövcud olduğu, qarşılıqlı anlaşma və tolerantlıq mühitinin hökm sürdüyü bir ölkədə nüfuzlu dövlət, elm və din xadimlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri bu tədbirin keçirilməsi qanunauyğun bir haldır. Ölkələrimiz İslam mədəniyyətinin və dünya mədəni-tarixi irsinin mərkəzi sayılır. Müsəlman intibahında mühüm rol oynayan Azərbaycan və Özbəkistan Şərqlə Qərb arasında birləşdirici körpü olaraq müxtəlif mədəniyyətlərin, dinlərin və konfessiyaların inkişafına əvəzsiz töhfə verib. Bu günlərə qədər qorunub saxlanılan tolerantlıq və mədəni-etnik rəngarənglik mühiti xalqlarımızın mənəvi zənginliyini göstərən tarixi nailiyyətdir.

Qeyd edilir ki, bu gün dünyada insan sivilizasiyası üçün real təhlükə sayılan ziddiyyətli proseslər və hadisələr baş verir. Müxtəlif regionlarda etnik və dini zəmində münaqişələr yaranır, terrorizm, separatizm, ksenofobiya, islamofobiya meyilləri güclənir, dindən siyasi məqsədlər üçün istifadə etməyə cəhd göstərilir. Bəşəriyyət yalnız birgə səylərlə bu təhlükələrə qarşı dura bilər. Bizi sevindirir ki, Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilən ildə xalqlarımız arasında olan dostluq münasibətləri dövlətlərimizin İslam həmrəyliyi və dinlərarası dialoqun tərəfdarı olduğuna bir daha sübutdur.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, akademik Akif Əlizadə konfransda çıxış edərək xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsiplərindən danışıblar. Diqqətə çatdırıblar ki,




Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan edib. Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması İslam dünyasında həmrəyliyin zəruriliyini əyani surətdə ortaya qoyur. Azərbaycan müsəlman dünyası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın çərçivələrini müəyyən edib. Bu kontekstdə dost və qardaş Özbəkistanla əlaqələr böyük əhəmiyyət daşıyır.

Mübariz Qurbanlı isə öz çıxışında bildirib ki, İslam həmrəyliyi ancaq müsəlman ölkələrində deyil, bütün dünyada harmoniyanın və dinc yanaşı yaşamağın mühüm şərtlərindəndir. Müsəlman dünyasını ümumi məqsəd əsasında birləşdirmək və vahid mövqedən çıxış etmək Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Panel iclasda QMİ sədrinin birinci müavini Salman Musayevin “Din və sosial əməkdaşlıq”, DQİDK sədrinin müavini Gündüz İsmayılovun “Azərbaycanda dövlət-din münasibətləri”, Bakı və Azərbaycan yeparxiyasının başçısı, arxiyepiskop Aleksandrın “Müasir dünyagörüşdə tolerantlıq problemləri: keçmiş və müasirlik”, Azərbaycan Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayevin “Tolerantlığın formalaşmasında dinin rolu”, Avropa Türk-Müsəlman İttifaqının prezidenti Musa Sərdar Çələbinin “Müasir İslam dünyagörüşündə tolerantlıq problemləri” mövzularında məruzələri dinlənilib.

Konfransın yekununda kommunike qəbul edilib.

***

Azərbaycan nümayəndə heyəti konfrans çərçivəsində Daşkənddəki İslam abidələrinə və məscidlərə baş çəkib, “Barak xan” mədrəsəsində olub, dindarlarla görüşüblər. Nümayəndə heyətinin üzvləri “Moy Mubarak” mədrəsəsində saxlanılan Qurani-Kərimin nadir nüsxəsi ilə tanış olublar. Bildirilib ki, VII əsrə aid Qurani-Kərimi Səmərqəndə XIV əsrdə Əmir Teymur gətirib.

Qonaqlar Dimam Buxari adına Daşkənd İslam İnstitutuna da səfər ediblər. Təhsil ocağının müəllim və tələbə heyəti ilə keçirilən görüşdə şeyxülislam Allahşükür Paşazadə bildirib ki, o, əvvəlcə Buxaradakı “Mir Ərəb” mədrəsəsində, sonra isə bu institutda təhsil alıb. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İnstituta “Azərbaycanın seçilmiş İslam abidələri” kitabını hədiyyə edib. Daha sonra qonaqlar Daşkənd İslam Universitetinə baş çəkiblər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Səmərqəndə gedərək buradakı İmam Buxari məqbərəsini ziyarət ediblər. Qonaqlara məqbərənin tarixi haqqında məlumat verilib. Şeyxülislam və digər qonaqlar kompleksdəki məsciddə namaz qılıblar. Sonra nümayəndə heyəti Həzrəti Xızır qəbiristanlığına gedərək Özbəkistanın birinci Prezidenti İslam Kərimovun dəfn edildiyi kompleksdə mərhumun ruhuna dualar oxuyublar. İslam Kərimovun məzarı üzərinə gül dəstələri qoyulub.

Qonaqlar Xoca Daniyar məqbərəsinə, Uluqbəy rəsədxanasına, Reqistan meydanına, Qur Əmir məqbərəsinə də baxıblar. Məlumat verilib ki, Xoca Daniyar məqbərəsinə dünyanın hər yerindən xristianlar, yəhudilər və müsəlmanlar ziyarətə gəlirlər. Bu məkana müsəlmanlar Xoca Daniyar, xristianlar Daniel, yəhudilər isə Daniil ziyarətgahı deyirlər.

Buxaraya səfər edən nümayəndə heyəti Bahauddin Naqşibəndi məqbərəsində, Mir Ərəb mədrəsəsində olublar. Mədrəsənin direktoru Elov Jabir bildirilib ki, şeyxülislam Allahşükür Paşazadə bu mədrəsədə təhsil alıb. Onun sözlərinə görə, Çeçenistanın birinci prezidenti, mərhum Əhməd Kadırov, Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin və digərləri bu mədrəsənin yetirmələridir.

Qonaqlar IX-X əsrə aid İsmayıl Samani məqbərəsi, Samanilər bağı və digər tarixi yerləri gəzərək Buxarada keçirilən “Şəhər Günü” bayramına qatılıblar.

* * *

Qeyd edək ki, səfər çərçivəsində Özbəkistan Prezidenti Şavkat Mirziyayev QMİ sədri şeyxülislam Allahşükür Paşazadəni, DQİDK sədri Mübariz Qurbanlını, AMEA prezidenti, akademik Akif Əlizadəni, Türkiyə Din İşləri İdarəsinin sədri Əli Ərbaşı qəbul edib. Görüşdə Özbəkistan ilə Azərbaycan arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin durmadan inkişaf etdiyi bildirilib. Şavkat Mirziyayev qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsi İslam dünyası üçün zəruri addımdır və bu təşəbbüs bütün müsəlman dünyasında dəstəklənir. Bu məsələ Daşkənd konfransında qəbul olunan bəyanatda da öz əksini tapıb.

Dövlət başçısı Özbəkistan ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin, təcrübə mübadiləsinin aparılmasının zəruriliyini vurğulayıb.

Şavkat Mirziyayev bildirib ki, Özbəkistan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın ədalətli mövqeyini müdafiə edir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin birmənalı olaraq yerinə yetirilməsinin tərəfdarıdır.

# MÜBARİZ QURBANLI SƏUDİYYƏ ƏRƏBİSTANINDA SƏFƏRDƏDİR



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanı Krallığında səfərdədir

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində İslam məsələləri, çağırış və irşad naziri şeyx Saleh bin Əbdüləziz Al əş-Şeyxlə görüşüb.

Görüşdə Azərbaycan və Səudiyyə Ərəbistanı arasında əlaqələrin səviyyəsindən məmnunluq ifadə olunub, iki qardaş ölkənin əlaqələrinin əsasının Ümummilli Lider Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri zamanı qoyulduğu vurğulanıb.

Saleh bin Əbdüləziz Al əş-Şeyx 1999-cu ildə Azərbaycana səfərini və səfər zamanı dövlət başçısı ilə görüşünü məmnunluqla xatırlayıb. O deyib ki, Heydər Əliyev İslam dünyasının problemlərinə xüsusi diqqət yetirirdi. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Nazir Azərbaycan və Səudiyyə Ərəbistanının qardaş xalqlar olduğunu bildirib, dövlət başçıları Salman bin Əbdüləziz və İlham Əliyevin rəhbərliyi altında iki ölkənin əməkdaşlığının daha da inkişaf edəcəyinə əminliyini dilə gətirib.

Görüşdə Mübariz Qurbanlı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə danışıb. O, münaqişə nəticəsində erməni vandalları tərəfindən bir sıra maddi-mədəni irs nümunələrinin, o cümlədən məscid və məbədlərin məhv edildiyini diqqətə çatdırıb. Komitə sədri münaqişə ilə bağlı qətiyyətli mövqeyinə və Ermənistanla diplomatik əlaqələr qurmaqdan imtina etdiyinə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərliyinə və xalqına təşəkkürünü bildirib.

M.Qurbanlı Azərbaycanın uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olduğunu, İslam dininin yayılmasında, eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynadığını qeyd edib. Komitə sədri Azərbaycan dövlətinin İslam dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin və Gəncə şəhərindəki "İmamzadə" kompleksinin əsaslı şəkildə yenidən qurularaq təmir olunduğunu, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi olan Heydər məscidinin inşa edildiyini diqqətə çatdırıb.

Hazırkı dövrdə İslam dünyasının həmrəyliyə böyük ehtiyac duyduğunu bildirən M.Qurbanlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, "İslam Həmrəyliyi İli" ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda bir sıra tədbirlər keçirilir. Həmçinin cari ilin dekabr ayında Prezident İlham Əliyevin himayəsi altında keçiriləcək beynəlxalq konfransda iştiraka dəvət məktubu nazirə təqdim olunub.

Görüş Səudiyyə Ərəbistanının dövlət informasiya agentliyinin internet səhifəsində və nüfuzlu "Əl-Cəzirə" qəzetində işıqlandırılıb.

Səfər çərçivəsində Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanının Məhəmməd bin Nayif adına Reabilitasiya və Qayğı Mərkəzində olub. Burada M.Qurbanlıya Mərkəzin fəaliyyəti və məqsədləri haqqında geniş məlumat verilib.

* * *



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində oktyabrın 31-də Müsəlman Dünyası Liqasının Baş katibi Məhəmməd bin Əbdülkərim əl-İsa ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyev tərəfindən elan edilmiş "İslam Həmrəyliyi İli" çərçivəsində görülən işlər, eləcə də ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib.

Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini bildirən Müsəlman Dünyası Liqasının Baş katibi ikitərəfli əlaqələrin qarşılıqlı hörmətə və İslam irsinə əsaslandığını bildirib. O, Azərbaycanın müsəlman ölkələri arasında İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində göstərdiyi bütün səylərin yüksək dəyərləndirildiyini diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın müsəlman dövlətləri ilə qarşılıqlı əlaqələrini genişləndirməsinin dövlətimizin xarici siyasət xəttinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Dövlətimizin daim İslam həmrəyliyi və dinlərarası dialoqun tərəfdarı olduğunu vurğulayan Komitə sədri Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsinin onun müsəlman aləmi ilə münasibətləri genişləndirməyə yönəlik siyasətindən irəli gəldiyini bildirib.

# BAKIDA "MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ: DÜNƏN, BU GÜN, SABAH" ADLI KONFRANS KEÇİRİLİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə oktyabr ayının 26-da "Milli-mənəvi dəyərlərin təbliği: dünən, bu gün, sabah" adlı konfrans keçirilib.



Milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın multikultural və tolerant ənənələrinin daha da gücləndirilməsi sahəsində görülən işlər və bu sahədə qarşıda duran məsələlərin müzakirəsinə həsr olunmuş tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, millət vəkilləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya nümayəndələri, din xadimləri, gənclər, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bundan sonra da bu istiqamətdə fəaliyyət davam etdiriləcək. Prezident İlham Əliyevin imzaladığı Fərmanla təsis edilən Mənəvi Dəyərlərin Təbliği Fondu barədə də ətraflı məlumat verən M.Qurbanlı Fondun DQİDK-nın tabeliyində fəaliyyət göstərəcəyini vurğulayaraq Dövlət Komitəsinin Qafqaz Müsəlmanları İdarəsi ilə birgə yeni yaradılan Fondla bağlı tədbirlər hazırlayacağını və Azərbaycan xalqına məxsus mənəvi və milli dəyərlərin gənc nəslə daha geniş şəkildə çatdırılması istiqamətində işlər həyata keçirəcəyini qeyd edib.

Ulu Öndərimiz Heydər Əliyevin "İslam dini bizim milli-mənəvi dəyərlərimiz arasında çox ciddi yer tutan dəyərlərdən biridir" fikrini xatırladan Mübariz Qurbanlı vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin əsasında dinimiz dayanır və hər bir dəyərimiz bu və ya digər formada məxsus olduğumuz dinimizə aiddir.

Daha sonra çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynov çıxışında mövzunun əhəmiyyətinə toxunaraq milli-mənəvi sərvətlərimizin tarixən müəyyən çətinliklərlə, qadağalarla qarşılaşsa da, xalqımızın bu dəyərləri bütün dövrlərdə qoruyub saxlaya bildiyini diqqətə çatdırıb. O, eyni zamanda, Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsinə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən də danışıb. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını yüksək qiymətləndirən R.Hüseynov vurğulayıb ki, Fond Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəni irsinin, ədəbiyyatımızın yaratdığı böyük yaradıcılıq örnəklərinin dünyada təbliğ edilməsi ilə ölkəmizin böyüklüyünü, gücünü və qüdrətini bir daha göstərəcəkdir.

"Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov, millət vəkili Fazil Mustafa, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadova, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Roma-Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Mirzəyev çıxışlarında Prezident İlham Əliyevin belə bir Fondun yaradılması haqqında imzaladığı Fərmanı yüksək qiymətləndirib və buna görə ölkə başçısına təşəkkürlərini bildiriblər. Vurğulanıb ki, dövlətimiz tərəfindən Azərbaycanda bütün sahələrə olduğu kimi, mili-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət göstərilir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB



Oktyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədri, sədr müavinləri, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

DQİDK-nın sədri Mübariz Qurbanlı gündəlikdəki məsələlər barədə ətraflı danışaraq bildirib ki, qurumun bütün respublika üzrə dini maarifləndirmə məqsədilə keçirdiyi tədbirlər öz bəhrəsini verir və Komitə bu sahədəki fəaliyyətini ardıcıl olaraq davam etdirməlidir.

Gündəliyə uyğun olaraq Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun Tasua və Aşura günü məscidlərdə aparılan xüsusi monitorinqlər barədə hesabat məruzəsi dinlənilib. Şöbə müdiri qeyd edib ki, DQİDK sədrinin əmri ilə Tədbirlər Planı hazırlanıb və həmin plana uyğun olaraq ardıcıl tədbirlər həyata keçirilib. Həmçinin dini mərasimlərin Qafqaz Müsəlmanları İdarəsinin Məhərrəmliklə bağlı qəbul etdiyi fətvada irəli sürülmüş şəri qaydalar əsasında keçirilməsi istiqamətində İslam dini icmalarının sədrləri, din xadimləri ilə müvafiq söhbətlər aparılıb, hər bir bölgənin yerli xüsusiyyətləri nəzərə alınmaqla qabaqlayıcı tədbirlər görülüb. Aşura mərasimlərinin sivil, milli adət-ənənələrimizə uyğun formada keçirilməsi istiqamətində həm QMİ, həm yerli icra hakimiyyətləri, həm də hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə müvafiq işlər görülüb.

Ə.Zülfüqarovun sözlərinə görə, Tasua və Aşura günlərində məscidlərdə xüsusi monitorinqlər təşkil olunub, Dövlət Komitəsinin rəhbərliyi də daxil olmaqla, əməkdaşları respublika üzrə məscid və ziyarətgahlarda keçirilmiş mərasimlərdə iştirak edərək, yaxından müşahidələr aparıblar. Aparılmış monitorinqlərin, daxil olmuş məlumatların ümumi təhlilinin ilkin nəticələrinə əsasən, bu il Aşura mərasimi ümumilikdə sabit keçib, bəzi neqativ hallar istisna olmaqla, ciddi pozuntuya yol verilməyib.

Daha sonra Dövlət Komitəsinin Hüquq və qeydiyyat şöbəsinin müdiri Səbinə Allahverdiyeva hesabat məruzəsi ilə çıxış edib. S.Allahverdiyeva məruzəsində qeyd edib ki, 9 ay ərzində 34 dini qurum (24 İslam təmayüllü dini icma, 10 kollec) dövlət qeydiyyatına alınıb. 2009-cu ildən 2017-ci ilin sentyabr ayına qədər cəmi 783 dini qurum dövlət qeydiyyatına alınıb ki, onların 755-i İslam təmayüllü, 28-i isə qeyri-İslam təmayüllüdür.

S.Allahverdiyeva onu da vurğulayıb ki, rəhbərlik etdiyi şöbə tərəfindən Dövlət Komitəsinin rəsmi internet saytında dini qurumlar və qanunvericilik haqqında məlumatlara nəzarət edilir, hər bir əlavə və dəyişikliyin saytda yerləşdirilməsi üçün müvafiq məlumat verilir.

Daha sonra DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmovun bölgədə dövlət-din münasibətlərinin tənzimlənməsi vəziyyətini öyrənmək və bu sahədə müvafiq işlər görmək məqsədilə şöbənin icra etdiyi işlərin istiqamət və məzmunu barədə məruzəsi dinlənilib. Hesabat dövründə şöbə tərəfindən bölgədə keçirilən maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verən natiq dini ayrı-seçkilik və ideoloji cəhətdən zərərli dini ədəbiyyatın əhali arasında təbliği və paylanılmasına edilən cəhdlərin qarşısının alınması istiqamətində atılan addımlar barədə də danışıb.

Müşavirə müzakirələrlə davam edib və müvafiq tapşırıqlar verilib.

# SABİRABADDA "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ" MÖVZUSUNDA REGİONAL KONFRANS




Oktyabrın 24-də Sabirabadda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabirabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayondakı Heydər Əliyev Mərkəzində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.

Bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanları, idarə və müəssisələrin rəhbərləri, YAP rayon təşkilatının rəhbərliyi, dini işlər üzrə komissiyanın üzvləri, dini icma sədrləri, din xadimləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən konfrans Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb.

Sonra çıxış edən Sabirabad RİH-in başçısı Nazim İsmayılov bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir. Bu təşəbbüs dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində əməli addımların atılmasına, o cümlədən müsəlman ölkələri arasında əməkdaşlıq əlaqələrinin daha da güclənməsinə öz töhfəsini verəcəkdir.

DQİDK sədri Mübariz Qurbanlı Ümummilli Lider tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan mükəmməl dövlət-din modeli sayəsində ölkəmizdə milli-mənəvi dəyərlərə qayıdışın əsasının qoyulduğunu, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərildiyini, ölkədə etiqad, inanc azadlığının tam təmin edildiyini qeyd edib. Komitə sədri Azərbaycanda digər sahələrdə olduğu kimi, dini sahədə sabitliyin əldə olunması ilə yanaşı, ümumilikdə İslam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi istiqamətində də əməli addımlar atıldığını diqqətə çatdırıb.

Konfransda nümayiş etdirilən "Şəhadət" sənədli filmi barədə də fikirlərini bölüşən M.Qurbanlı DQİDK-nın dini radikalizmə qarşı həyata keçirilən maarifləndirmə tədbirlərinin effektivliyinin artırılması istiqamətində sənədli filmlərin hazırlanmasına xüsusi önəm verdiyini vurğulayıb. O, vətənpərvərliyin təbliği və təşviqi məqsədilə hazırlanan "Şəhadət" sənədli filmində vətənə sevgi ilə yanaşı, eyni zamanda, dini ekstremizmin törətdiyi faciələrə diqqət çəkildiyini deyib.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi Ağakərim Sadıqov, Sabirabad rayon Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov çıxış edərək bölgələrdə cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması istiqamətində həyata keçirilən dini maarifləndirmə tədbirlərinin vacibliyinə toxunublar.

Konfransın ikinci panelində "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda müzakirələr aparılıb.

Rayonun məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinlərinin, məktəb psixoloqlarının, "Həyat bilgisi" fənnini tədris edən müəllimlərin, gənclərin iştirak etdikləri tədbiri rayon icra hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov açıb. O, rayonda dini icmaların fəaliyyəti üçün yaradılan şəraitdən, Dövlət Komitəsinin dəstəyi ilə dini icmaların həyata keçirdiyi maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov öz çıxışında müstəqilliyimizin bərpasından sonra respublikamızda dini fəaliyyət sahəsində dözümlülük mühitinin yeni bir dövrə qədəm qoyduğunu, bu sahənin normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldığını bildirib.

Konfrans öz işini iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşdırıb.



# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ



Oktyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm ilə görüşüb.

Görüşdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində bu gün ölkəmizdə vicdan azadlığının təmin edilməsi, dini, milli münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, tolerant və multikultural mühitin qorunub-saxlanılması istiqamətində ardıcıl addımlardan danışan Komitə sədri müsəlman və qeyri-müsəlman dini icmalara dövlət tərəfindən maliyyə yardımının ayrıldığını və Azərbaycanda yaşayan müxtəlif dini konfessiyaların nümayəndələrinə daima xüsusi diqqət göstərildiyini vurğulayıb.

Öz növbəsində Dövlət Komitəsinin "Həyat sözü" icması ilə yaxından əməkdaşlıq etməsindən məmnunluqlarını ifadə edən qonaq Azərbaycandakı tolerantlıq və dinlərarası münasibətləri, icmaların fəaliyyəti üçün yaradılan sağlam mühiti xüsusi olaraq qeyd edib.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edildiyi görüşdə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov və "Həyat sözü" xristian dini icmasının sədri Rasim Xəlilov da iştirak ediblər.

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"



***Oktyabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Qax rayonunda "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunada seminar-müşavirə keçirilib.***

Seminar-müşavirədə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Qafqaz Müsəlmanları İdarəsinin



(QMİ) Qax rayonu üzrə səlahiyyətli nümayəndəsi Hacı Əsgərov, Qax rayonu Qaşqaçay kənd məscidinin imamı Əliyar Mahmudov, Qax Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini Vəfa Heydərova, dini icma sədrləri, din xadimləri, eyni zamanda ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Bu qəbildən daha bir tədbir oktyabrın 13-də DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Qəbələ RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, həmçinin dini icma rəhbərləri və rayon ictimaiyyətinin iştirakı ilə Qəbələ Rayon Mədəniyyət Mərkəzində də keçirilib.

***

Eyni mövzulu növbəti tədbir oktyabrın 23-də İsmayıllı rayonunda baş tutub. Müşavirədə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, İsmayıllı RİH başçısı Mirdaməd Sadıqov, İsmayıllı RİH başçısının birinci müavini Rövşən Ağayev, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, şöbənin əməkdaşı Elnur Mehdiyev, QMİ-nin səlahiyyətli nümayəndəsi Şahzadə Bilalov, dini icma sədrləri, eyni zamanda, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***



Analoji seminar-müşavirə oktyabrın 24-də Şamaxıda keçirilib. Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Şamaxı RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov, QMİ-nin səlahiyyətli nümayəndəsi Məhəmmət Mustafayev, rayon Ağsaqqallar şurasının sədri Mayıl Alcanov, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminar-müşavirələrdə geniş məruzə ilə çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Prezident cənab İlham Əliyevin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə, eyni zamanda məzhəblər arasında dini tolerantlığın qorunması, həmrəyliyin təmin edilməsi və dini radikalizmə qarşı mübarizənin gücləndirilməsi sahəsində DQİDK tərəfindən həyata keçirilən silsilə tədbirlərin əhəmiyyətindən danışıb. O qeyd edib ki, ölkəmizdə dinlə bağlı düzgün dövlət siyasətinin formalaşması, dini maarifçiliyin yüksək səviyyədə təşəkkül tapması vətəndaşlarımızın dini şüur səviyyəsini, İslama doğru yanaşmasını və baxışını təkmilləşdirib. Dövlət Komitəsi sədrinin birinci müavini bildirib ki, müsəlman aləmində baş verən ziddiyyətlər fonunda Azərbaycan müasir inkişaf xətti ilə seçilir, ölkəmizdə sülh və etimad mühiti qorunur.

Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlər haqqında da məlumat verən S.Salahlı deyib ki, Prezident İlham Əliyev beynəlxalq miqyasdakı qlobal sülh və əməkdaşlıq hərəkatının əsas öncüllərindəndir və sivilizasiyalar, dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı etimadın yaradılması üçün mühüm fəaliyyət göstərir. Bu sahədəki məqsədyönlü, düşünülmüş siyasətin nəticəsidir ki, dövlət başçısı tərəfindən 2016-cı il "Multikulturalizm ili", onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan olunmuşdur.

Səyyad Salahlı, eyni zamanda İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə öz tövsiyələrini verib, onları İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırıb.

Digər natiqlər də öz çıxışlarında ölkəmizdə bütün dini konfessiyaların nümayəndələrinə bərabər münasi-




bət göstərilməsindən, dövlət qayğısı sayəsində ölkədə əmin-amanlığın, sabitliyin təmin olunmasından danışıblar. Qeyd olunub ki, malik olduğumuz milli-mənəvi dəyərlərimizin təbliğatını genişləndirməyin radikalizmə qarşı mübarizəyə daha çox töhfə verəcəkdir.

Dövlət Komitəsinin Azərbaycanın müxtəlif bölgələrində təşkil etdiyi bu görüşlərin cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasındakı önəmi vurğulanıb.

Seminar-müşavirələrin sonunda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "BİBLİYA TARİXİ" VƏ "PRAVOSLAV KATİXİZİSİ" KİTABLARININ AZƏRBAYCAN DİLİNDƏ TƏRCÜMƏSİ İŞIQ ÜZÜ GÖRÜB






Oktyabrın 25-də Bakıda "Bibliya tarixi" və "Pravoslav katixizisi" kitablarının Azərbaycan dilində tərcüməsinin təqdimat mərasimi keçirilib. Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sivilizasiyaların mərkəzində yerləşən Azərbaycanda zaman-zaman müxtəlif dinlərin mövcud olduğunu, onlar arasında Xristianlığın tariximizdə mühüm yer tutduğunu qeyd edərək vurğulayıb ki, buna əyani nümunə kimi hazırda ölkəmizdə olan alban kilsələrini göstərmək olar. Komitə sədri bildirib ki, kitabların Azərbaycan dilində təqdim olunması xüsusi əhəmiyyətə malikdir, çünki azərbaycanlılar bu nəşrləri ana dillərində oxuya biləcəklər, dinini mükəmməl bilən insan isə heç vaxt radikal qrupların təsirinə düşə bilməz, bu cür kitabların ölkəmizdə daha geniş yayılması vacibdir.

Təqdimat zamanı Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunun sosiolinqvistika və dil siyasəti şöbəsinin müdiri, "Bibliya tarixi" və "Pravoslav katexizisi" kitablarını dilimizə tərcümə etmiş professor Mayıl Əsgərov də çıxış edərək bildirib ki, bu kitablar azərbaycanlı oxucuların həm Xristianlıq, həm də pravoslavlıqla bağlı dəqiq məlumat ala biləcəkləri etibarlı mənbədir.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2016-cı il Azərbaycanda



"Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunub. "Bibliya tarixi" və "Pravoslav katixizisi" kitablarının tərcüməsi də məhz bu sülhsevər siyasətin və xalqımızın bütün millətlərə və dinlərə xoş münasibətinin əyani sübutudur. Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən "İqumen Taisinin xatirəsi cəmiyyəti" İctimai Birliyi tərəfindən nəşr olunan kitablar DQİDK-nın xüsusi icazəsi ilə Azərbaycana gətirilib.

# DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALARIN LAYİHƏLƏRİNİ MALİYYƏLƏŞDİRİB



Oktyabrın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) layihələri maliyyələşdirilmiş dini icma sədrlərinin iştirakı ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı dövlətin dinə göstərdiyi diqqət və qayğının təməlinin Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulduğunu və bu siyasətin hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini iştirakçıların nəzərinə çatdırıb. Səyyad Salahlı mütəmadi olaraq bu cür layihələrə dövlətin birbaşa dəstəyinin din sahəsinə olan diqqətin bariz nümunəsi olduğunu vurğulayıb. O, eyni zamanda həyata keçiriləcək layihələrin məqsədindən də bəhs edib. Layihələr çərçivəsində sağlam dini biliklərə söykənən maarifləndirmənin aparılması ilə yanaşı, gənclərə ənənəvi İslam dəyərləri, radikal dini cərəyanlar və onların fəsadları barədə məlumatların verilməsi məqsədilə respublikanın regionlarında müxtəlif tədbirlərin həyata keçirilməsinin, maarifləndirici ədəbiyyatların çap edilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılıb.



Layihələri maliyyələşdirilən dini icma sədrləri çıxış edərək dindarlar üçün yaradılmış hüquqi-mənəvi şəraitə, mövcud ictimai-siyasi sabitliyə görə Prezident İlham Əliyevə səmimi minnətdarlıq hisslərini ifadə ediblər.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ" MÖVZUSUNDA KONFRANS

Oktyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Astara Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın sədr müavini Gündüz İsmayılov, şöbə müdiri Oqtay Hüseynov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Lənkəran şöbəsinin əməkdaşı Turan Həsənov, Astara RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gündüz İsmayılov çıxışında Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam dünyasının həmrəyliyinə verilən böyük önəmin göstəricisi olduğunu bildirib. Dövlət Komitəsi tərəfindən maarifləndirmə məqsədilə rayon və şəhərlərdə ardıcıl olaraq "dəyirmi masa" və




konfranslar keçirildiyini qeyd edən G.İsmayılov bu tədbirlərin məqsədinin dövlət-din münasibətləri, İslam həmrəyliyi, ölkəmizin tolerantlıq ənənələri, onların qorunması və daha da inkişaf etdirilməsi olduğunu diqqətə çatdırıb.

Sədr müavini onu da qeyd edib ki, ideoloji müstəvidə din sahəsində mövcud olan problemlərdən biri dini kimliyimizin milli kimliyimizə qarşı qoyulmasıdır. Dini kimlik dedikdə İslam, milli kimlik dedikdə isə Azərbaycançılığın nəzərdə tutulduğunu deyən Gündüz İsmayılov təəssüflə bildirib ki, bəzi dini qruplar məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoyurlar.

Astara RİH başçısı Aparatının nümayəndəsi Mərasim Hacıyev çıxış edərək rayondakı mövcud dini durum barədə konfrans iştirakçılarına məlumat verib. DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov da 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasından bəhs edib. O bildirib ki, dövlət səviyyəsində ilk dəfə Azərbaycan tərəfindən irəli sürülən bu təşəbbüs ölkəmizə, müsəlman dünyasına və bütün bəşəriyyətə həmrəylik çağırışıdır.

Konfrans müzakirələr şəklində davam edib.

# "RADİKALİZM VƏ EKSTREMİZMİN MAHİYYƏTİ, YARANMA SƏBƏBLƏRİ VƏ ONLARA QARŞI MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI"



Oktyabrın 13-də Qusarda "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda seminar-müşavirə keçirilib.

Qusar Rayon İcra Hakimiyyətinin inzibati binasında reallaşan seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov, Qusar Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Şair Alxasov, Baş Prokurorluq, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin məsul şəxsləri, DQİDK-nın Qusar, Quba, Xaçmaz, Şabran və Siyəzən rayonlarının yerli strukturlarının rəhbərləri, bölgənin din xadimləri, dini icma sədrləri, gənclər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***

Analoji tədbir oktyabrın 24-də Xəzər rayonunda baş tutub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub.

Seminar-müşavirədə DQİDK sədrinin müavini Səyavuş Heydərov, Xəzər RİH başçısının birinci müavini Vaqif Həsənov, Baş Prokurorluğun, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin Xəzər, Suraxanı, Sabunçu və Pirallahı rayonlarının yerli strukturlarının rəhbərləri, din xadimləri, dini icma sədrləri, həmçinin rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Regional seminar-müşavirələrdə çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov bildirib ki, ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, əmin-amanlığı, sabitliyi pozmağa, digər ölkələrin milli xüsusiyyətlərini, dini ideologiyalarını İslam adı altında ölkəmizdə təbliğ etməyə çalışan bəzi qüvvələrlə mübarizə aparılması, gənclərin və yeniyetmələrin zərərli dini cərəyanların təsiri altına düşməsinin qarşısının alınması üçün preventiv tədbirlərin görülməsi Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində əsas fəaliyyət istiqamətlərindəndir.

Sədr müavini qeyd edib ki, bu gün Azərbaycanda dini durum sabitdir. Azərbaycanda heç vaxt dini qarşıdurmaya çağırış olmayıb, dini ayrı-seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur. Ölkə qanunları da bunun əleyhinədir. Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Məhz buna görədir ki, Azərbaycanın adı həmişə dünyada tolerantlığa nümunə olan ölkə kimi göstərilir. Dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır.

Dini sahədə maarifləndirmə işinin radikallıqla mübarizənin ən əsas metodlarından biri olduğu diqqətə çatdıran S.Heydərov deyib ki, radikal kökləri təmizləmək üçün həmin qüvvələrə alternativ olaraq, milli-mənəvi dəyərlərimizə əsaslanan model üzərində qurulmuş üslub formalaşdırılmalıdır. Bu model yetişən gənc nəslin öz dəyərlərinə sadiq qalması, milli kimliyinə hörmətlə yanaşması və yad mühitdən qaynaqlanan radikal ünsürlərdən qorunması məqsədinə xidmət etməlidir. Həmin modelin sistemli şəkildə tətbiqi günümüzdə radikalizm meyillərinin zəiflədilməsi, eyni zamanda gələcəkdə baş verə biləcək mənfi halların qarşısının alınması üçün mühüm addım olacaq.

Qusar RİH-in başçısı Şair Alxasov, Xəzər RİH başçısının birinci müavini Vaqif Həsənov öz çıxışlarında rayonlardakı mövcud dini durum barədə geniş məlumat veriblər. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması istiqamətində mühüm addımlar atılıb. Adət və ənənələrimizə hörmət hissi, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunmasına diqqət və



qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov öz çıxışlarında müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə geniş məlumat verib.

Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev də çıxış edərək dini radikalizm və ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən danışıb, təmsil etdiyi qurumun müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb.

Seminar-müşavirələr müzakirələrlə davam etdirilib. Milli-mənəvi dəyərlərimizi, cəmiyyətimizi, dövlətimizi zərərli dini cərəyanlardan, radikalizm və ekstremizmdən qorumaq, bu sahədə fəaliyyətin səmərəliliyini artırmaq, müsbət nəticələr əldə etmək məqsədilə əlaqəli şəkildə vahid təbliğat aparmağın zəruriliyi vurğulanıb. Həmçinin dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyi də diqqətə çatdırılıb. Çıxış edən dini icma nümayəndələri dindarlara göstərilən qayğıya görə təşəkkür ediblər.

Tədbirlərdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş olunub.

# "İSLAM HƏMRƏYLİYİ: AZƏRBAYCAN ÖRNƏYİ"

Oktyabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "İslam həmrəyliyi: Azərbaycan örnəyi" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) rəhbər və məsul şəxsləri, dini icma və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, gənclər, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, "İslam Həmrəyliyi İli" ilə bağlı təsdiq olunmuş Tədbirlər Planı çərçivəsində Dövlət Komitəsi silsilə konfrans, seminar və müşavirələr keçirir. Həmin tədbirlərdə müxtəlif qurum və dini konfessiyaların nümayəndələri ilə birgə ənənəvi dini və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və təşviqi, ölkəmizin İslam həmrəyliyinin əldə edilməsində oynadığı mühüm rol və təsir, bu sahələrdə qazanılan nailiyyətlər və qarşıda duran vəzifələr müzakirə olunur.

G.İsmayılov deyib: "Biz Azərbaycanın İslam həmrəyliyi modeli dedikdə ölkə vətəndaşlarının dinindən, milli mənsubiyyyətindən asılı olmayaraq eyni dəyərlər, prinsiplər ətrafında birləşməsini nəzərdə tuturuq. İslam həmrəyliyinin yalnız müsəlmanların birliyi ilə məhdudlaşdırılmasını düşünmürük. İslam həmrəyliyi dedikdə



digər dinlərə və mədəniyyətlərə qarşı müsəlmanların formalaşdırılmasını nəzərdə tutmuruq. Bizim üçün İslam həmrəyliyi İslam dünyası ilə iqtisadi, mədəni, idman, mənəvi və digər sahələrdə həmrəy olmaqdır. Eyni zamanda, İslam həmrəyliyi başqa dinlərin nümayəndələrinə qarşı hörmət, onlarla birgəyaşayış mədəniyyəti deməkdir. Bunun ən gözəl örnəyi Azərbaycan dövləti və cəmiyyətidir".

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, Bilik Fondunun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla, BBMM-in layihələr şöbəsinin müdiri Sərxanbəy Xuduyev, Qafqaz Müsəlmanları İdarəsinin Fətva şöbəsinin müdiri Aqil Şirinov öz çıxışlarında Azərbaycanın uzun illər İslam sivilizasiyasının əsas mərkəzlərindən biri kimi bu dinin yayılmasında və müsəlman intibahının bərqərar olmasında mühüm rol oynamasından danışıblar. Eyni zamanda, Azərbaycanın tarixən müxtəlif dinlərin və mədəniyyətlərin ortaq vətəni olduğunu vurğulayan natiqlər hazırda ölkədəki dini durum və bu sahədə görülən işlər haqqında məlumat veriblər.

Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev də ölkəmizdəki tolerant mühitdən danışıb, İslam həmrəyliyinin Azərbaycan örnəyinin və modelinin dünyada təbliğ olunmasının vacibliyini vurğulayıblar.

Qeyd edilib ki, Azərbaycan həmrəylik ölkəsidir, bu istiqamətdə ölkədə Prezident İlham Əliyev tərəfindən ardıcıl dövlət siyasəti aparılır, burada dini, multikultural dəyərlərə də xüsusi önəm verilir. Bu gün ölkədə müxtəlif dinlərin mənsubları heç bir ayrı-seçkiliklə qarşılaşmır və öz ayinlərini sərbəst şəkildə həyata keçirirlər.

Konfrans iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə öz işini yekunlaşdırıb.

# BAKIDA BEYNƏLXALQ DİNİ AZADLIQ GÜNÜ QEYD EDİLİB



Oktyabrın 27-də Beynəlxalq Dini Azadlıq Günü ilə əlaqədar Böyük Britaniyanın Azərbaycandakı səfirinin iqamətgahında tədbir keçirilib.

Britaniyanın ölkəmizdəki səfirinin müavini Stiven Makkornik Birləşmiş Krallığın daim müxtəlif icmalar arasında dini azadlığı dəstəklədiyini vurğulayıb. O bildirib ki, Böyük Britaniya dini etiqad azadlığına önəm verir.

Diplomat Azərbaycanın əsrlərboyu dini icmalar arasında tolerantlığın təşviqinə görə böyük hörmət qazandığını vurğulayıb.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycanda milli mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bununla bağlı fəaliyyət bundan sonra da davam etdiriləcək. O vurğulayıb ki, milli mənəvi dəyərlərimizin əsasında dinimiz dayanır və hər bir dəyərimiz bu və ya digər formada məxsus olduğumuz dinimizə aiddir. Səyyad Salahlı deyib ki, Azərbaycanın sivilizasiyaların qovuşuğunda yerləşməsi, müxtəlif dinlərlə tarixən təmasımızın olması xalqımızın mədəniyyətinə, adət-ənənələrinə təsir göstərib. Azərbaycan tolerantlığın məkanı kimi məşhurdur.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, İslam dini insan hüquqlarını, xüsusilə qadın və uşaq hüquqlarını qoruyan, ailədə qarşılıqlı anlaşmanı, qadına hörmət etməyi, təhsilin vacibliyini təbliğ edən dindir. O qeyd edib ki, zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan tarixən çoxkonfessiyalı məkan olub. Hazırda Azərbaycan İslam mədəniyyətinin, tolerant mühitin formalaşdığı nümunəvi ölkələrdən biridir.

# "Aİ-NİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANDAKI DİNİ TOLERANTLIQ MÜHİTİNİ YÜKSƏK QİYMƏTLƏNDİRDİLƏR"



*Brüsseldə Avropa İttifaqı (Aİ) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə layihəsi çərçivəsində tədbir keçirilib. Tədbirdə iştirak edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov onun nəticələri və töhfələri, səfər çərçivəsində keçirilən görüşlərin Azərbaycan üçün əhəmiyyəti barədə AZƏRTAC-ın suallarını cavablandırıb.*

**-Brüsseldəki görüşlərin əhəmiyyəti barədə fikirlərinizi bildirmənizi xahiş edirik.**

-Azərbaycandan olan böyük bir nümayəndə heyəti ilə Brüsseldə çox əhəmiyyətli tədbirlərdə iştirak etdik. Nümayəndə heyətinə Azərbaycanda fəaliyyət göstərən müsəlman, xristian və yəhudi dini icmalarının nümayəndələri daxil idilər. Tədbirlər zamanı bir sıra önəmli görüşlər keçirdik. Bunlardan Aİ-nin xarici siyasət üzrə ali nümayəndəsinin müavini Jan-Kristof Belliard və Avropa Parlamentinin birinci vitse-prezidenti xanım Mayrid MakGinneslə görüşlərimizi xüsusi vurğulamaq istərdim. Qeyd etmək istəyirəm ki, ilk dəfədir Aİ-nin bu səviyyəli nümayəndələri Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri ilə görüşürlər. Nəzərə alsaq ki, Azərbaycan Avropa İttifaqının xüsusi önəm verdiyi tərəfdaş ölkələrdən biridir, dövlət rəsmiləri ilə ikitərəfli və çoxtərəfli mütəmadi görüşlərin keçirilməsini adi hal kimi qəbul etmək olar. Lakin bu şəxslər bu dəfə Azərbaycandan olan dini icmaların nümayəndələri ilə, başqa sözlə desək, sadə insanlarla görüşdülər, onların gündəlik həyat tərzi, fəaliyyətləri barədə özlərindən məlumat əldə etdilər.

Bundan başqa, Avropa Parlamentinin deputatı Səccad Kərim, Avropa Parlamentinin Avropa Xalq Partiyasını təmsil edən deputatları Zelyana Zovko, Gyorgi Holveni və Yan Olbrayt, o cümlədən Aİ-nin xarici siyasət xidməti strukturunun rəhbərliyində təmsil olunan digər şəxslərlə görüşləri qeyd edə bilərəm. Bu görüşlərin xüsusi əhəmiyyəti ondan ibarət idi ki, qeyd etdiyim şəxslərdə və onların təmsil etdikləri qurumlarda ölkəmizlə, o cümlədən ölkəmizdə fəaliyyət göstərən dini icmalar və mövcud dini durumla bağlı daha obyektiv fikirlər formalaşdı.

**-Avropa strukturları Azərbaycanda tolerantlıq haqqında nə qədər məlumatlıdır və bizim bu model onlar üçün hansı dərəcədə maraqlıdır?**

-Avropa bir siyasi fenomen kimi, eləcə də onun strukturları vahid və yekcins deyil. Siyasi spektrin müxtəlif qanadlarını təmsil edən qruplar bütün məsələlərə öz ideoloji çərçivələrindən baxırlar. Buna görə də Avropa strukturları ilə görüşlərdə bu amil mütləq nəzərə alınmalıdır. Bizim Avropa strukturları ilə görüşlərimiz həm Avropa İttifaqının xarici siyasət xidmətində çalışan yüksək səviyyəli bürokratlarla, həm də Avropa Parlamentinin seçilmiş üzvləri ilə baş tutdu. Parlamentarilərlə görüş xüsusilə mühümdür. Ona görə ki, Aİ-də qərarların qəbul olunmasında Avropa Parlamentinin müstəsna rolu var. Təsadüfi deyil ki, burada da sağ mərkəzçi qüvvələr əsas rol oynayır. Görüşlərimiz də elə siyasi spektrin bu qanadına mənsub olan Avropa Xalq Partiyasının üzvləri ilə oldu. Nəzərə almaq lazımdır ki, Avropa Xalq Partiyası Avropa Parlamentindəki ən böyük siyasi qrupdur. Bizimlə görüşün təşəbbüskarı da məhz parlamentarilər idilər ki, bu da Azərbaycana olan maraqdan irəli gəlir.

Digər tərəfdən, Azərbaycanla bağlı istənilən məsələ Avropa üçün həmişə maraqlı olub. Bunun da kökündə, zənnimcə, ölkəmizdə tarixən mövcud olan xalqların birgəyaşayışı istiqamətindəki uğurlu strategiya olub. Fəxrlə deyə bilərik ki, bu gün nəinki Avropa strukturlarında, bütün dünyada Azərbaycandakı tolerant mühit olduqca maraqlıdır. Dünyada hazırda din pərdəsi altında gedən siyasi çəkişmələr, dini zəmində baş verən münaqişələr baxımından bizim bu tolerant mühiti qoruyub saxlamağımız xüsusilə diqqət mərkəzindədir. Bununla əlaqədar, deyə bilərik ki, səfər zamanı həyata keçirdiyimiz görüşlərdə Avropa İttifaqının nümayəndələri Azərbaycanda mövcud olan dini tolerantlıq mühitini yüksək qiymətləndirdilər və bu cür birgəyaşayış modelinin bir çox dünya ölkələri üçün örnək ola biləcəyini qeyd etdilər. Ümumilikdə, Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı oynadığı rol ilə yanaşı, dünyada qlobal təhlükəsizlik probleminin əsasını təşkil edən dini zəmindəki münaqişələrin dayandırılmasında özünəməxsus modeli ilə böyük töhfələr verəcəyi vurğulandı. Buna misal olaraq, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli", cari ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi diqqətə çatdırıldı.

**-Aİ ilə gələcək əməkdaşlığın perspektivlərinə dair nə fikirdəsiniz?**

-Əlbəttə ki bizim Aİ ilə əməkdaşlıq məsələmiz təkcə bu görüşlərlə yekunlaşmır. Gələcək planlar içərisində bir sıra maraqlı layihələr var ki, bunların da tərəflər üçün faydalılıq dərəcəsi prioritetlərə görə müəyyənləşəcək. Biz artıq daha böyük layihələr üzərində işləyirik. Bilirsiniz ki, Aİ-nin Avropa Qonşuluq Siyasəti çərçivəsində tərəfdaş ölkələr üçün hazırlanmış Tvinninq, TAİEX kimi alətləri mövcuddur. Yaxın gələcəkdə biz bu mexanizmlərdən yararlanmaqla Avropa ilə əməkdaşlığımızı daha da genişləndirmək fikrindəyik. Digər tərəfdən, Aİ-nin daxili proqram və layihələri də var ki, qeyri-üzv dövlətlər də onlardan yararlana bilərlər. İlkin razılaşmalara əsasən deyə bilərik, biz də artıq bu layihələrdə iştirak edəcəyik. Nəzərə almaq lazımdır ki, müasir dünyada dini zəmində baş verən münaqişələr və onların törətdiyi fəsadlar bu gün Avropada xüsusi narahatlıq doğurur. Buna görə də Avropa etnik, dini, mədəni fərqliliklərin daha optimal idarə edilməsi üzərində baş sındırır. Azərbaycanın bu sahədəki nailiyyətləri isə danılmazdır. Buna görə də həm biz, həm də Avropa strukturları qarşılıqlı əməkdaşlığı genişləndirmək əzmindəyik.

**-Səfər çərçivəsində vətəndaş cəmiyyətləri ilə də görüşləriniz reallaşıb, bu sahədə münasibətləri necə qiymətləndirirsiniz?**

-Bəli, səfər çərçivəsində səlahiyyətimiz daxilində reallaşan görüşlər sırasında vətəndaş cəmiyyəti üzvləri ilə görüşlər də oldu. Bilirsiniz ki, dünyada vətəndaş cəmiyyətinin də öz əhəmiyyətli funksiyaları var. Görüşlərimiz zamanı Azərbaycanda olan dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə yürütdüyü siyasətdən bəhs olundu. Bunlardan əlavə, dini konfessiyaların nümayəndələri Avropa Parlamentinin deputatları ilə görüşlərdə diqqəti Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğala məruz qalması faktına yönəldərək bildirdilər ki, bu ərazilərdə əsrlərlə tarixə malik müsəlman və xristian dini abidələri məhv edilib. Parlamentarilərin nəzərinə çatdırıldı ki, Ermənistanın təcavüzkar siyasəti olmasaydı, Brüsselə səfər edən Azərbaycandan olan dini konfessiyaların tərkibində erməni din xadimləri də rahatlıqla iştirak edə bilərdilər. Görüş çərçivəsində Avropa Kilsələrinin Konfransı Təşkilatı və Azərbaycanda fəaliyyət göstərən protestant icmalar arasında gələcək əməkdaşlıq barədə ilkin razılaşma əldə olundu. Ümid edirik ki, bu əməkdaşlıq Avropanın rəsmi strukturlarında Azərbaycan haqqında obyektiv fikrin formalaşmasına öz töhfəsini verəcək.

**-Səfər çərçivəsində NATO nümayəndələri ilə də görüşləriniz reallaşıb, bu sahədə münasibətləri necə dəyərləndirirsiniz?**

-Səfər çərçivəsində NATO-nun baş qərargahında bu təşkilatın ictimai diplomatiya bölməsinin rəhbərləri səfir Tomaş Xlon, professor Gerlinde Nihus və Despina Afentuli ilə görüşümüz baş tutub. Görüşdə NATO-nun siyasi prioritetləri və tərəfdaşlarla münasibəti barədə məlumat verildi, bu gün dünyanı narahat edən təhlükəsizlik və terrorizm problemləri müzakirə edildi. Ümumiyyətlə, hazırda dünyada NATO öz təhlükəsizlik siyasətini yalnız Avratlantik məkanda deyil, həmçinin ondan kənarda da həyata keçirməyə çalışır. Günümüzdə dini zəmində baş verən münaqişələr onu göstərir ki, bu sahədə müvəffəqiyyət hələ əldə olunmayıb. Ona görə, dünya düzəninin institusional çərçivədə təhlükəsizliyinin təmin edilməsi üzrə dini aspektdən təkliflər, eləcə də dinin siyasiləşdirilməsinə son qoyulması ətrafında müzakirələr aparıldı. Qeyd edilən problemlərin həlli üçün nəticə və fəsadlarla yanaşı, səbəblərlə, ikili standartlarla mübarizənin vacibliyi vurğulandı, o cümlədən dini tolerantlığın təşviq olunması, bu problemin həlli istiqamətində müzakirələr üçün ekspertlərdən ibarət yeni platformanın yaradılması tərəfimizdən təklif edildi. Görüşlər çərçivəsində Azərbaycanda dini radikalizmlə mübarizə istiqamətində dini icmalar səviyyəsində həyata keçirilən layihələr barədə məlumat verildi, o cümlədən dini və multikultural təhlükəsizliyin təminatına dövlət siyasətinin prioritet istiqaməti kimi önəm verildiyi diqqətə çatdırıldı.

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin oktyabr ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*




***1 oktyabr*** – Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini ekstremizm və radikalizmə "yox" deyir" layihəsi çərçivəsində "Müasir dövrdə İslam dünyasında dini ekstremizmin yaranma səbəbləri və fəsadları" mövzusunda;

***2 oktyabr*** – Zaqatala rayonu Üçüncü Tala kənd məscidi dini icmasının "Azərbaycanda İslam ənənələri" layihəsi çərçivəsində Aşağı Tala 3 saylı tam orta məktəbində "Dini radikalizm ənənəvi dəyərlərimizə təhdiddir" mövzusunda;

***3 oktyabr*** –Sabunçu rayonu Pirşağı qəsəbə "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" layihəsi çərçivəsində; Balakən rayonu Katex kənd "Mərkəzi" məscidi dini icmasının "İslam dini mövhumata və xurafata qarşıdır" layihəsi çərçivəsində Qarahacılı kənd orta məktəbində "İslam dininin elmə verdiyi həqiqi dəyər" mövzusunda; Salyan rayonu Qarabağlı kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəy dəyərlər" layihəsi çərçivəsində; Ağcabədi rayonu Muğanlı kəndi "Seyid İsmayıl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində Köyük kənd tam orta məktəbində;

***4 oktyabr*** – Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "Azərbaycan İslam həmrəyliyinin ideya və



real fəaliyyət mərkəzinə çevrilir" layihəsi çərçivəsində Yevlax rayon Yenicə kənd məscidində "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" mövzusunda; Şabran rayonu Dağbilici kənd məscidi dini icmasının "Milli-mənəvi və dini dəyərlərin qorunmasında birgəyaşayışın və həmrəyliyin rolu" layihəsi çərçivəsində Gəndov kənd tam orta məktəbində; Masallı rayonu Lürən kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "Dinimiz mənəviyyatımızdır" mövzusunda; Qəbələ rayonu Hacılalı kənd məscidi dini icmasının "Dini və milli müxtəlifliyin vəhdətində İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində Qəbələ rayonu Mamaylı kənd tam orta məktəbində;

***5 oktyabr*** – Neftçala rayonu Boyat kənd İmam Cəfər Sadiq məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün tələbidir" layihəsi çərçivəsində;

***6 oktyabr*** – Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini ekstremizm və radikalizmə "YOX" deyir" layihəsi çərçivəsində "Dini radikalizmin qarşısının alınmasında ənənəvi İslam dəyərlərinin rolu" mövzusunda; Qəbələ rayonu Hacılalı kənd məscidi dini icmasının "Dini və milli müxtəlifliyin vəhdətində İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində Qəbələ rayonu Hacılalı kənd tam orta məktəbində "Nümunəvi dindarın xüsusiyyətləri" mövzusunda;

***9 oktyabr*** – Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icmasının "İslam sülh və həmrəylik dinidir" layihəsi çərçivəsində "İslamda vətən sevgisi" mövzusunda; Şirvan şəhər Bayramlı qəsəbəsi İmam Hüseyn məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində "İslamda həmrəy dəyərlər" mövzusunda; Şəki rayonu Aydınbulaq kənd "Hacı Mir Ələkbərağa" məscidi dini icmasının "İslam dini sülh, həmrəylik və vəhdət dinidir" layihəsi çərçivəsində Əlyar kənd tam orta məktəbində;

***10 oktyabr*** – Cəlilabad rayonu Zərbiəlli kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslam həmrəyliyi radikalizmə qarşı mübarizədə vasitə kimi" layihəsi çərçivəsində "Radikalizm və ekstremizmə qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; Astara rayonu Kijəbə qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində Lovayın kəndində; Qusar şəhəri "Mustafa Kazdal" məscidi dini icmasının "Azərbaycanda İslam həmrəyliyi: milli-mənəvi dəyər kimi" layihəsi çərçivəsində; Ağdaş şəhər Hacı Osman məscidi dini icmasının "İslam Həmrəyliyi İli: Sülh və həmrəyliyə aparan yol - dialoq" layihəsi çərçivəsində "İslam həmrəyliyi və müasirlik" mövzusunda; Ağsu şəhər "Nuran Xatun" məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Ağstafa rayonu İmam Əli adına "Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" mövzusunda; Hacıqabul rayonu Abdulabad kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində;

***11 oktyabr*** – Ağdaş rayon Qəribli kənd məscidi dini icmasının "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" layihəsi çərçivəsində Qəribli kənd tam orta məktəbində "Dini radikalizmin və ekstremizmin yaranma, yayılma metodlarına qarşı mübarizə" mövzusunda; Saatlı rayonu Fətəlikənd kənd "Cümə" məscidi dini icmasının "Tolerantlıq və dini dözümlülük Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi kimi" layihəsi çərçivəsində "Gənclər arasında erkən nikah, dini radikalizm və digər zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; Ağcabədi rayonu Muğanlı kəndi "Seyid İsmayıl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində Şahsevən Təzəkənd kənd tam orta məktəbində; Balakən rayonu Katex kənd "Mərkəzi" məscidi dini icmasının "İslam dini xurafata və mövhumata qarşıdır" layihəsi çərçivəsində "Gənc nəsli sağlam milli-mənəvi ruhda tərbiyə etməyin əhəmiyyəti" mövzusunda; Gədəbəy şəhəri "Cümə" məscidi dini icmasının "İslamın mənəvi və əxlaqi dəyərlərinin gənclərə aşılanması" layihəsi çərçivəsində "Azərbaycanda tolerantlığın tarixi kökləri" mövzusunda;

***12 oktyabr*** – Masallı rayonu Ağakişibəyli kəndi "Şeyx Həsən" məscidi dini icmasının "İslamda multikultural dəyərlər və tolerantlıq ənənələri" layihəsi çərçivəsində Qəhrəman İsmayılov adına Şərəfə kənd tam orta məktəbində "İslam həmrəyliyi Azərbaycanın zəfəridir" mövzusunda; Lənkəran rayonu Qurumba kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində Qurumba kənd ümumi orta məktəbində "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda; Şabran rayonu Dağbilici kənd məscidi dini icmasının "Milli-mənəvi və dini dəyərlərin qorunmasında birgə yaşayışın və həmrəyliyin rolu" layihəsi çərçivəsində Şabran ra-



yonu Şahnəzərli kənd tam orta məktəbində; Neftçala rayonu 1 saylı Mayak kəndi İmam Əli məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Qobustan rayonu Təklə Mirzəbaba kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birlik nümunəsidir" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Ağcabədi rayonu "Seyid Mürsəl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi məhzəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində Ağcabədi Pedaqoji Kollecində; Göyçay rayonu Yeniarx kənd məscidi dini icmasının "Müsəlman intibahının bərqərarı-İslam Həmrəyliyi" layihəsi çərçivəsində; Qəbələ şəhər dindarlarının məscidi dini icmasının "İslam həmrəylik dinidir" layihəsi çərçivəsində;

***13 oktyabr*** – Sabirabad rayonu Qaratəpə kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində "İslam həmrəyliyi – başəriyyəti sülhə aparan yol" mövzusunda; Salyan rayonu Qarabağlı kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəy dəyərlər" layihəsi çərçivəsində; Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində Çarhan kəndində "İslamda vətən sevgisi" mövzusunda;

***16 oktyabr*** – Masallı rayonu Eminli kənd məscidi dini icmasının "İslam həmrəyliyi Azərbaycan kontekstində" layihəsi çərçivəsində Həbib Sadıqov adına Eminli kənd tam orta məktəbində "Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində dinimizin rolu" mövzusunda; Oğuz rayon Tərkeş kənd məscidi dini icmasının "Dini




radikalizmin milli-mənəvi dəyərlərimizə təsiri" layihəsi çərçivəsində;

***17 oktyabr*** – Göyçay rayonu Yeniarx kənd məscidi dini icmasının "Müsəlman intibahının bərqərarı - İslam Həmrəyliyi" layihəsi çərçivəsində; Astara şəhəri "Qum" məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində Astara rayon Maşxan kəndində; Saatlı rayonu Qarayev kənd məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində "İslam həmrəyliyi milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi" mövzusunda; Şabran rayonu Zeyvə kənd məscidi dini icmasının "Ənənəvi İslam dinində həmrəylik prinsipləri" layihəsi çərçivəsində; Hacıqabul rayonu Abdulabad kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində;

***18 oktyabr*** – Lənkəran rayonu Şağlaser kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" layihəsi çərçivəsində "Heydər Əliyev irsi və İslam həm-

davamı səh. 11

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

əvvəli səh. 10

rəyliyi" mövzusunda; Şəki rayonu Kiçik Dəhnə kənd məscidi dini icmasının "Cəmiyyətimizi dini-radikal təsirlərdən qoruyaq" layihəsi çərçivəsində;

***19 oktyabr*** – Qusar şəhəri "Mustafa Kazdal" məscidi dini icmasının "Azərbaycanda İslam həmrəyliyi: milli-mənəvi dəyər kimi" layihəsi çərçivəsində "Tolerantlığın Azərbaycan modeli" mövzusunda; Masallı



rayonu Kubin kənd məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin əhəmiyyəti" layihəsi çərçivəsində Eldar Xamiyev adına Kubin kənd ümumi orta məktəbində "Radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; Şəki rayonu Baltalı kənd məscidi dini icmasının "Dini radikalizm milli-mənəvi dəyərlərə və milli kimliyimizə təhdiddir" layihəsi çərçivəsində; Ağdaş rayon Aşağı Nemətabad məscidi dini icmasının "İslam həmrəyliyi və İslam elm tarixində Azərbaycan məktəbi" layihəsi çərçivəsində Aşağı Nemətabad kənd tam orta məktəbində "İslam dini dostluq dinidir" mövzusunda; Göyçay rayonu Yalman kənd məscidi dini icmasının "İslam Həmrəyliyi və sosial ədalət" layihəsi çərçivəsində;

***20 oktyabr*** – Şəki rayon Tərkeş kənd məscidi dini icmasının "Dini radikalizmin milli-mənəvi dəyərlərimizə təsiri" layihəsi çərçivəsində;

***23 oktyabr*** – Sığıncaq kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu" layihəsi çərçivəsində "Dövlətçiliyimizin möhkəmləndirilməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

***24 oktyabr*** – Astara şəhəri "Qum" məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində rayonun Sım kəndində; Cəlilabad rayonu Maşlıq kəndi "Şəhidlər" məscidi dini icmasının "İslam həmrəyliyi: Azərbaycan nümunəsi" layihəsi çərçivəsində "İslam dini və şəhidlik" mövzusunda; Qəbələ şəhər dindarlarının məscidi dini icmasının "İslam həmrəylik dinidir" layihəsi çərçivəsində Qəbələ şəhər mədəniyyət mərkəzində; Ağdaş şəhər dindarları məscidi dini icmasının "İslam həmrəyliyi ili: Sülh və həmrəyliyə aparan yol-dialoq" layihəsi çərçivəsində Ağdaş Texniki, Təbiət və Humanitar gimnaziyasında "Quranda pluralizm" mövzusunda; Şabran rayonu Dağbilici kənd məscidi dini icmasının "Milli-mənəvi və dini dəyərlərin qorunmasında birgə yaşayışın və həmrəyliyin rolu" layihəsi çərçivəsində Pirəmsən kənd tam orta məktəbində; Göyçay rayonu Çərəcə kənd məscidi dini icmasının "İslam Həmrəyliyi – sülhə aparan yol" layihəsi çərçivəsində;

***25 oktyabr*** – Yevlax rayon Yenicə kənd məscidi dini icmasının "İslam həmrəyliyi dini ekstremizm və radikalizmə "YOX" deyir" layihəsi çərçivəsində; Ağcabədi



rayonu Muğanlı kəndi "Seyid İsmayıl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində; Zərdab rayonu Xanməmmədli kənd məscidi dini icmasının "İslam həmrəyliyi-müsəlman dünyasının xilası" layihəsi çərçivəsində "İslam həmrəyliyinin qarşısında duran maneələr" mövzusunda; Şəki rayonu Baltalı kənd məscidi dini icmasının "Dini radikalizm milli-mənəvi dəyərlərə və milli kimliyimizə təhdiddir"



layihəsi çərçivəsində Qoxmuq kənd ümumi orta məktəbində;

***26 oktyabr*** – Lənkəran rayonu Qurumba kənd məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində; Abşeron rayonu Saray qəsəbəsi "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində; Ağcabədi rayonu "Seyid Mürsəl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi məhzəb ayrı-seçkiliyinə qarşıdır" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında; Şabran rayonu Zeyvə kənd məscidi dini icmasının "Ənənəvi İslam dinində həmrəylik prinsipləri" layihəsi çərçivəsində; Neftçala rayonu Bankə qəsəbəsi Həzrət Əli məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində;

***27 oktyabr*** – Şəki rayonu Baltalı kənd məscidi dini icmasının "Dini radikalizm milli-mənəvi dəyərlərə və milli kimliyimizə təhdiddir" layihəsi çərçivəsində İnçə-Zunud kənd tam orta məktəbində; Lənkəran rayonu Şağlaser kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" layihəsi çərçivəsində Şağlaser kənd ümumi orta məktəbində; Neftçala rayonu Boyat kəndi İmam Cəfər Sadiq məscidi dini icmasının "İslam həmrəliyi müasir dövrün tələbidir" layihəsi çərçivəsində;

***30 oktyabr*** – Qəbələ şəhər dindarlarının məscidi dini icmasının "İslam həmrəylik dinidir" layihəsi çərçivəsində; Şirvan şəhəri Bayramlı qəsəbəsi "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" mövzusunda Şirvan şəhər 3 saylı tam orta məktəbində;

# "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR KEÇİRİLİB

*Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Qeyd edilənlərə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində oktyabr ayı ərzində də bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:*

***6 oktyabr*** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Şirvan Şəhər İcra Hakimiyyəti (ŞİH) və Şirvan şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə İqtisadiyyat və Humanitar Kollecində "Dini radikalizmə yox deyirik" mövzusunda;

***9 oktyabr*** – DQİDK və Masallı rayonu Rəhim Tağıyev adına Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə



"İslam həmrəyliyi və tariximiz" mövzusunda;

***10 oktyabr*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Danaçı kənd 1 saylı tam orta məktəbdə "Azərbaycan gəncliyinin milli-mənəvi dəyərlərdən qaynaqlanan vətən sevgisi" mövzusunda;

***18 oktyabr*** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon Gənclər və İdman İdarəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Yardımlı şəhəri Vəli Məmmədov adına 2 saylı tam orta məktəbində "İslam həmrəyliyi və müasir gəncliyimiz" mövzusunda;

***19 oktyabr*** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Lerik şəhər 3 saylı tam orta məktəbində "İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və təhsil" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki Dövlət Regional Kollecinin birgə təşəbbüsü ilə "Bəşəri dəyərlər, dövlətçilik ənənəsi və din" mövzusunda;

***20 oktyabr*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının birgə təşkilatçılığı ilə təşkilatın inzibati binasında "Heydər Əliyev İslam Həmrəyliyi ideyasının banisidir" mövzusunda;

***25 oktyabr*** – DQİDK və Suraxanı RİH-in birgə təşkilatçılığı ilə Suraxanı rayonu Hövsan kəndi 118 saylı tam orta məktəbdə "Dindarlıq və vətəndaşlıq mövqeyi" mövzusunda;

***26 oktyabr*** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara Rayon Təhsil Şöbəsi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Astara şəhər M.Ə.Sabir adına 1 saylı tam orta məktəbində "İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və təhsil" mövzusunda baş tutub.

# QISA-QISA



***12 oktyabr*** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Ədliyyə Nazirliyi Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə 14 saylı cəzaçəkmə müəssisəsində "Dini radikalizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.

***13 oktyabr*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhər Gənclər Evində dini icmaların rəhbərləri və din xadimlərinin iştirakı ilə görüş keçirilib.

***16 oktyabr*** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH), rayon Gənclər və İdman idarəsi, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci və İsmayıllı Peşə Tədris Mərkəzinin birgə təçkilatçılığı ilə Gənclər Mərkəzində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" adlı konfrans keçirilib.

***17 oktyabr*** – Quba rayonunun Qırmızı Qəsəbəsində DQİDK-nın dəstəyi və "Dəyər" Mənəvi İrsin Təbliği İB-nin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İslam həmrəyliyinin Azərbaycan modelinin təbliğinə dair tədbirlərin keçirilməsi" layihəsi çərçivəsində konfrans baş tutub.

***20 oktyabr*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab şəhər Uşaq və Ailələrə Dəstək Mərkəzi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqlar ailənin möhkəmliyi və xalqın gələcəyidir" mövzusunda tədbir təşkil edilib.

***20 oktyabr*** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi, və Masallı Regional Kollecinin birgə təşkilatçılığı ilə "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması" mövzusunda tədbir keçirilib. Maarifləndirmə məqsədi ilə keçirilən tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, Masallı Rayon Polis Şöbəsinin



rəisi Habil Əmiraslanov, Masallı Regional Kollecinin direktoru Vidadi Nəzərov, rayon ictimaiyyətinin nümayəndələri, həmçinin, kollecin müəllim-tələbə heyəti iştirak ediblər.

***23 oktyabr*** – DQİDK və Ağstafa RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

***24 oktyabr*** – DQİDK və Qazax RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

***24 oktyabr*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Yuxarı Tala kənd 2 saylı tam orta məktəbində "Milli kimlik və dəyərlərimiz" adlı tədbir təşkil olunub.

***25 oktyabr*** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba RİH-in birgə təşkilatçılığı ilə Quba şəhəri Başir Səfəroğlu adına Mədəniyyət Mərkəzində "Vətən sevgisi imandandır" adlı tədbir baş tutub.

***26 oktyabr*** – Ucarda Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və DQİDK-nın birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və milli-mənəvi dəyərlər" mövzusunda maarifləndirici tədbir keçirilib.

***27 oktyabr*** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in birgə təşkilatçılığı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzində "Uşaq hüquqları aylığı" çərçivəsində "Milli-mənəvi dəyərlərimizdə uşaq hüquqları" mövzusunda maarifləndirici təşkil edilib.

***27 oktyabr*** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonu 8 saylı orta məktəbdə "Uşaq hüquqları aylığı" çərçivəsində "Çağdaş cəmiyyətimizdə uşaqların tərbiyə və təhsil hüquqlarının qorunması" mövzusunda tədbir keçirilib.

***27 oktyabr*** – Qax rayonunun Ləkit kənd tam orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində



"Narkomaniyaya yox deyək" mövzusunda tədbir baş tutub.

***30 oktyabr*** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində rayon Heydər Əliyev Mərkəzində "Dinimiz və uşaq hüquqları" adlı tədbir keçirilib.

Tədbirlərdə ölkə rəhbəri cənab İlham Əliyevin apardığı uğurlu və məqsədyönlü siyasətdən danışılıb. Vurğulanıb ki, bu siyasətə dəstək olmaq yolunda hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün təbliğ etmək kimi məsuliyyətli bir vəzifə düşür.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin əhəmiyyətinə də toxunan məruzəçilər bildiriblər ki, bu gün dünyada İslamı terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və buna qismən də nail olan məlum şəbəkələr var. Onların yaratdığı mənfi imic, əslində, İslamın daxilindəki parçalanmadan, maarifçilikdən uzaq düşməsindən qaynaqlanır. Çoxkonfessiyalı ölkə kimi Azərbaycan dünyada dinlər və mədəniyyətlər arasında əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsinə layiqli töhfələr verə biləcəkdir.

Eyni zamanda, tədbirlərdə dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərin təbliği, eləcə də ənənəvi İslamın dirçəldilməsi məqsədilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirlərin həyata keçirilməsinin zəruriliyindən danışılıb. Qeyd olunub ki, bu səbəbdən Dövlət Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən birini də dini radikalizm və ekstremizmə mübarizə, milli-mənəvi dəyərlərin təbliği çərçivəsində maarifləndirmə işi təşkil edir. Çünki dini radikalizm və ekstremizmin qarşısının alınması sahəsində maarifləndirmənin alternativi yoxdur.

Tədbirlərdə müxtəlif mövzularda müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# MALAYZİYADA DİN

Cənub Şərqi Asiyada yerləşən Malayziya 1957-ci ildə Böyük Britaniyanın müstəmləkəsindən ayrılaraq müstəqillik əldə etmişdir. Ölkə şimaldan Tayland və Sinqapur, cənubdan İndoneziya, qərbdən Andaman dənizi, şərqdən isə Cənubi Çin dənizi ilə həmsərhəddir. Paytaxtı Kuala Lumpur olan Malayziyanın ümumi sahəsi 330 min kv km, əhalisi isə 30 milyondur. Ölkə idarəetmə formasına görə federal konstitusiyalı monarxiyadır.

Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Malayziya, həmçinin çoxkonfessiyalı və multikultural ölkə hesab edilir. Ölkədə İslam, Xrisitianlıq, Hinduizm, Buddizmlə yanaşı demək olar ki, bütün dinlər fəaliyyət göstərir. Malaziyada din etnik kimliklə sıx bağlıdır, belə ki, hinduistlərin əksəriyyəti hindistanlı, buddistlər çinli, müsəlmanlar isə malaydır. Ölkə əhalisinin 62%-ni müsəlmanlar, 19%-ni buddistlər, 9 %-ni xristianlar, 6%-ni hinduistlər, 1%-ni isə ənənəvi Çin dinlərinin nümayəndələri təşkil edir. Malayziyada xalq dini, animizm, siqhizm və digər dinlər də mövcuddur.

Ölkə həyatında mühüm rol oynayan İslam aparıcı din hesab olunur. Burada sünni məzhəbi ilə bərabər az sayda şiələr də yaşayır. Malayziya hökumətinin əsas məqsədi tolerant və balanslı şəkildə idarəetməni təmin etməkdir. Ölkədə olan məscidlər və dini mərasimlər dövlət tərəfindən qorunur. Şəriət məhkəməsinə görə, müsəlmanlara dinini dəyişmək qadağandır, əks halda onlar sahib olduğu bütün statuslardan məhrum edilirlər. Bu qadağa digər din mənsublarına şamil olunmur.

Buddizm İslam dinindən sonra ölkədə ən geniş yayılmış ikinci dindir. Ölkədə yaşayan malayziyalı çinlilər Buddizm, Daosizm, Konfutsiçilik və Çin xalq dinlərinin nümayəndələridir. Burada hər bir dini quruluş müstəqildir və Malayziya çinlilərinin əksəriyyəti Buddizmin Mahayana qoluna mənsubdur. Ölkədə Malayziya Buddist Şurası fəaliyyət göstərir. Onun əsas məqsədi Malayziya buddistləri arasında birliyi təbliğ etməkdir. "Vesak günü" dövlət bayramı hesab edilir. Ölkədə 150 Daosist məbədi, Malayziya Daosist İcması və Daosist Təşkilat Liqası mövcuddur.

Əksəriyyəti Şərqi Malaziyada yaşan xristianların isə əsas hissəsini katoliklər, anqlikanlar və metodistlər təşkil edir. Milad bayramı ölkə üzrə qeyd olunur. Yeni kilsə inşasına müəyyən məhdudiyyətlər qoyulsa da, mövcud olan kilsələrin fəaliyyətinə rahat şəkildə icazə verilir. Şərqi Malayziyada "Xeyirli Cümə" bayram kimi qeyd edilsə də, dövlət bayramı hesab olunmur.

Malayziyada dördüncü ən geniş yayılmış din Hinduizmdir. Əhalinin təxminən 9%-ni təşkil edən tamillər bu dinin nümayəndələridir. Hinduistlərin əksəriyyəti yarımadanın qərb bölgəsində yaşayırlar. Bu din hind əsilli malayziyalıların mədəniyyəti ilə sıx bağlıdır. Dipavali və Taypusam ölkə hinduistlərinin milli bayramı hesab edilir.

Dini məsələlərlə əsasən İslam Dini Məsələləri İdarəsi məşğul olur. Bununla yanaşı, ölkədə Milli Fətva Şurası da fəaliyyət göstərir. Mülki məhkəmə İslamla bağlı məsələlərə baxılmasını Şəriət məhkəməsinə həvalə edir. Şəriət məhkəməsində yalnız müsəlmanlarla bağlı məsələlərə baxılsa da, dünyəvi məhkəmədə müsəlmanlarla yanaşı qeyri-müsəlmanların da işlərinə baxılır. Dini azlıqların azad şəkildə ibadət etmək hüququ təmin edilir. Dini etiqad azadlığı ölkədə insan hüquqlarının təbliği siyasətinin tərkib hissəsidir. Dini etiqad azadlığı ilə bağlı qanunun 11-ci maddəsinə əsasən hər kəsin mənsub olduğu dini ifadə etmək və yaymaq hüququ vardır.

Malayziyada dövlət məktəblərində İslam dini tədris edilir. Özəl məktəblər qeyri-müsəlmanlara seçim kimi digər dini tədris proqramı təklif edirlər. Evdə təhsilə dair heç bir məhdudiyyət qoyulmur. Yalnız dövlət tədris proqramını qəbul etmiş və dövlətin nəzarəti altında olan özəl İslam məktəblərinə hökumət tərəfindən yardım göstərilir.

**Səfər SƏFƏRLİ,**
**DQİDK-nın əməkdaşı**

# "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ MARAQLA QARŞILANIB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində radikal dini təmayüllərin zərərli ideyalarına qarşı mübarizə məqsədilə kütləvi nəşrlər, o cümlədən maarifləndirici kitab, jurnal, broşürlər çap edilir, sənədli filmlər hazırlanır. Bunlardan biri də Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmidir. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və radikalizmin təsirinə məruz qalan, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunub. DQİDK əməkdaşlıq etdiyi qurumlarla birgə ölkə ərazisində "Şəhadət" sənədli filminin nümayişini həyata keçirir. Oktyabr ayı ərzində filmin nümayişi:

***10 oktyabr*** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev, şöbənin əməkdaşı Elvin Qarayev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov, din xadimləri, dini icma sədrləri və kollecin müəllimlərinin iştirakı ilə Şəki İslam Kollecində;

***11 oktyabr*** – Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, Dinşünaslıq ekspertizası şöbəsinin əməkdaşı Zeynəb Tayıbova, Azərbaycan Dövlət Pedaqoji Kollecin Tərbiyə işləri üzrə direktor müavini Nigar Şirəliyeva və kollecin tələbələrinin iştirakı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kollecində;

***18 oktyabr*** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin əməkdaşları Ülvi Məmmədov, Abdulla Hüseynov, Sumqayıt Dövlət Texniki Kollecinin direktor müavini Mehman İsmayılov, eləcə də müəllimlər və tələbələrin iştirakı ilə Sumqayıt Dövlət Texniki Kollecində;

***20 oktyabr*** – Kürdəmir RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların əməkdaşları, aprel şəhidlərinin ailə üzvləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Kürdəmir şəhər Heydər Əliyev Mərkəzində;

***23 oktyabr*** – Ağdam RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Mehman Mustafayev, DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin əməkdaşı Pərviz Eyvazov, kollecin rəhbərliyi, müəllim və tələbələri, ziyalılar və din xadimlərinin iştirakı ilə Ağdam Musiqi Kollecində;

***24 oktyabr*** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin əməkdaşı Pərviz Eyvazov, Ağdam RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Mehman Mustafayev, Ağdam Dövlət Sosial-İqtisadi Kollecinin direktoru Natiq Cavadov, müəllim və tələbələr, rayon ziyalıları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Ağdam Dövlət Sosial-İqtisadi Kollecində;

***25 oktyabr*** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin əməkdaşı Yalçın Abdullayev, məktəbin direktoru Ruhiyyə Tağıyeva, müəllimlər və yuxarı sinif şagirdlərinin iştirakı ilə Sumqayıt şəhər 1 saylı tam orta məktəbində;

***26 oktyabr*** – DQİDK-nın əməkdaşı Abdulla Hüseynov, məktəbin direktoru Fəxrəddin Dostməmmədov, müəllimlər və şagirdlərin iştirakı ilə Xızı rayon Cabir Novruz adına Sitalçay 1 saylı tam orta məktəbində;

***26 oktyabr*** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Ülvi



Məmmədov, məktəbin direktoru Müqabil Abbasov, müəllimlər və şagirdlərin iştirakı ilə Sumqayıt şəhəri 1 saylı tam orta məktəbində;

***27 oktyabr*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşı Rahib İbrahimov, Bərdə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Aydın Qasımov, QMİ-nin Qarabağ bölgəsi üzrə qazısı Ramazan Hüseynov, Bərdə Rayon Polis Şöbəsinin əməkdaşı Vüsalə Əzimova, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin direktor müavini Xosrov Musayev, kollecin tələbələri, 1 saylı Musiqi məktəbinin müəllim və şagird heyətinin iştirakı ilə Bərdə rayon 1 saylı Musiqi məktəbində;

***27 oktyabr*** – Füzuli RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Qabil Əliyev, DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin əməkdaşı Mehtixan Zeynalov, orta məktəb müəllimləri və şagirdləri, rayon ziyalıları və ictimaiyyətin digər nümayəndələrinin iştirakı ilə Füzuli rayonu Horadiz şəhər 3 saylı orta məktəbdə;

***27 oktyabr*** – Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, müdir müavini - dini qurumlarla işin təşkilatçısı Şəmsi Gülverdiyev, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin əməkdaşları Samir Yoldaşov və Fidan Aslanova, məktəbin direktoru Bəhram Şiriyev, məktəb müəllimləri və şagirdlərin iştirakı ilə Binəqədi rayonu 276 saylı orta məktəbdə baş tutub.

# İSLAMIN HƏR HANSI BİR MODELİ VARMI?

Son illər mətbuatda, gündəlik həyatda ərəb İslamı, türk İslamı, fars İslamı və s. kimi ifadələri tez-tez eşidirik. Eyni zamanda, İslamın Azərbaycan modeli ifadəsinin də işlədildiyinin şahidi oluruq. Həqiqətən də İslamın ərəb, türk, fars modeli var və ya İslamın Azərbaycan modeli deyildikdə nə nəzərdə tutulur? Ümumiyyətlə, İslamın hər hansı bir modeli deyildikdə onun mənsubları tərəfindən formalaşdırılması anlaşılmalıdır? Yoxsa mövcud olduğu cəmiyyətlərdəki mədəniyyətin həmin dinə təsiri, yaxud müsəlman ölkələrindəki dövlət quruluşu, həmin quruluş tərəfindən dinin tənzimlənməsi başa düşülməlidir?

Bilirik ki, İslam dininin özündə ehtiva etdiyi prinsiplər hər kəs üçün əsasən eynidir. Bütün müsəlman xalqlar İslam deyildikdə ilk növbədə Qurani-Kərimi və Həzrət Peyğəmbərin hədislərini əsas qaynaq hesab edirlər. Hər iki mənbə bütün müsəlmanlara görə dəyişməzdir və demək olar ki, bütün müsəlman cəmiyyətlərində bu mənbələrə yanaşma tərzi eynidir. Bu baxımdan İslamın hər hansı modelindən danışmaq mümkün deyildir.

Lakin din bir müddət sonra qədəm qoyduğu hansısa cəmiyyətin mədəniyyəti, adət-ənənəsi və dünyagörüşü ilə qaynayıb qarışır. Bu, bütün dinlərin təbiətində vardır. İslam dini də ilk dəfə ortaya çıxdığı ərəb cəmiyyətinin dünyagörüşündən bəhrələnmiş, daha sonra onu qəbul edən müxtəlif xalqlar da bu dinə öz dünyagörüşlərinə uyğun bəzi əlavələr etmişlər. Farslar, türklər və digər xalqlar müsəlman olduqdan sonra İslam dini həmin xalqların adət-ənənəsindən, mədəniyyətindən və dövlət quruluşundan faydalanaraq ikinci dərəcəli məsələlərdə (yəni dinin əsaslarından olmayan məsələlərdə) müəyyən dəyişikliklərə uğramış və nəticədə zənginləşmişdir. Məhz bu baxımdan, bəlkə də, İslamın hər hansı modelindən danışmaq mümkündür. Yəqin ki, İslamın filan modeli deyildikdə bu ikinci dərəcəli məsələlərdəki fərqliliklər nəzərdə tutulur. Lakin ikinci dərəcəli məsələlər əsas məsələlərə olan baxışa önəmli dərəcədə təsir göstərir.

İndi isə İslamın Azərbaycan modelinə nəzər salaq. İslamın Azərbaycan modeli deyildikdə nə başa düşülür? Uzun müddət Sovet istilası altında qalan və bu dövrdə dinin ciddi şəkildə yara aldığı ölkəmizdə İslamın Azərbaycan modeli mövcuddurmu və ya mövcud deyilsə onu formalaşdırmaq mümkündürmü? Əvvəlcə İslamın Azərbaycan modeli ifadəsini açıqlamağa çalışaq. Din xadimlərindən biri bəhs edirdi ki, o, yas mərasimində İslamdan danışarkən ara-sıra 9-10-cu əsr ərəb din alimlərindən və ya şeyxlərindən sitatlar gətirirmiş. Məclisdə əyləşən və din ilə o qədər də əlaqəsi olmayan bir nəfər ona irad tutur ki, danışarkən sitatları bizim anlaya biləcəyimiz Nizami, Fizuli, Nəsimi və s. Azərbaycan mütəfəkkirlərdən gətir. Yəni, dini mənim dünyagörüşümdən yola çıxaraq izah et. Yəqin ki, İslamın filan modeli deyildikdə başa düşülən məhz belə məsələlərdir. Din xadiminin barəsində danışdığı hadisəyə nəzər salsaq görərik ki, əslində İslamın hər hansı modelindən daha çox xalqların İslama baxış və ya anlayış tərzi üzərində durmaq lazımdır. İslamın filan modeli ifadəsinin əvəzinə müxtəlif müsəlman xalqlarının dünyagörüşləri nəticəsində formalaşan İslama baxış tərzləri ifadəsini işlətmək daha düzgün olar.

Azərbaycan cəmiyyətinin 70 illik kommunizm rejimi altında yaşaması onun dini ənənələrinə ciddi ziyan vurmuş və nəticədə cəmiyyətlə dini ənənələr arasında böyük uçurum yaranmışdır. Dünyanın sürətlə qloballaşmağa başladığı dövrdə müstəqilliyini bərpa edən Azərbaycan cəmiyyətinin özünəməxsus İslam modeli və ya İslama baxış tərzi yaratması qeyri-mümkün idi. Çünki tarix boyu yaranan dini ənənənin yalnız izləri qalmışdı və izlər üzərində nəyisə dərhal inşa etmək imkansız idi. Lakin müəyyən dövr keçdikdən sonra yerli baza az da olsa formalaşmışdır. Hər nə qədər xarici təsirlər olsa da, zaman keçdikcə xalqımızın özünəməxsus İslama baxış tərzini inkişaf etdirəcəyi qaçılmazdır.

Xülasə, İslamın ərəb, fars, türk modelləri və ya İslamın Azərbaycan modeli ifadələri əvəzinə bu xalqların İslama baxış tərzi ifadəsini işlətmək daha uğurlu, daha uyğun olacağı qənaətindəyəm. Bu baxış tərzini formalaşdıran əsas hərəkətverici qüvvələr isə bütövlükdə dünyagörüşü də adlandıra biləcəyimiz cəmiyyət, mədəniyyət və dövlət quruluşudur.

**Mehman İsmayılov,**
**DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri,**
**ilahiyyat üzrə fəlsəfə doktoru**

# MULTİKULTURALİZM SİYASƏTİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN NÜMUNƏSİ

***"Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir".***

***İlham Əliyev***

Anlayış olaraq yeni, həyat tərzi və mahiyyət baxımından isə qədim tarixə malik olan multikulturalizm müxtəlif dinlərin, etnik qrupların, irqlərin daşıyıcılarının dinc yanaşı yaşadığı və bir-birinin mədəni müxtəlifliyini inkar etmədiyi müasir cəmiyyətin xarakterik xüsusiyyətidir. Termin kimi "multikulturalizm" sözü ilk dəfə 1957-ci ildə İsveçrənin bu sahədə həyata keçirməyə başladığı siyasəti ifadə etmək üçün işlədilmişdir. 1971-ci ildə isə o, Kanadanın Baş naziri Pyer E.Tryudonun hökuməti tərəfindən "Multikulturalizm haqqında rəsmi akt"ın qəbul edilməsindən sonra rəsmi surətdə ictimai münasibətlərə, elmi-siyasi dövriyyəyə daxil olmuşdur. Sonralar ABŞ, Avstraliya, Almaniya, Böyük Britaniya, Fransa kimi ölkələr multikulturalizmi dövlət siyasətinin tərkib hissəsi elan etmişlər.

Sözün hərfi mənasında "çoxmədəniyyətlilik" anlamına gələn multikulturalizmin siyasi xətt kimi qəbul olunması o deməkdir ki, dövlət mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır, etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, ölkə əhalisinin hüquq və azadlıqlarına hörmətlə yanaşır, hər bir vətəndaşa öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək hüquqları verir. Multikulturalizm siyasətinin rəğbət qazanmasının əsas səbəbi isə onun əsrlər boyu Qərb ölkələrində istifadə olunmuş assimilyasiyanı-izolyasiyanı inkar etməsi, inteqrasiyaya şərait yaratmasıdır.

**Qərb multikulturalizmi və iflas**

İkinci Dünya müharibəsindən sonra dünyanın siyasi səhnəsi və dövlətlərin idarəçilik formaları tam şəkildə dəyişdiyindən əvvəllər mövcud olmuş ideoloji fərqlər aradan qalxdı. Üstəlik, qloballaşmanın da təsiri ilə miqrasiya prosesinin sürətlənməsi nəticəsində Qərbdə multi-etnik cəmiyyətlərin sayı artmağa başladı. Beləliklə, bir dövlət çərçivəsində onlarla fərqli mədəniyyətə sahib xalqların nümayəndələri yaşamağa başladılar ki, bu da dövlət idarəçiliyi sahəsində çətinliklərin yaranmasına səbəb oldu. Ötən əsrin 70-ci illərinədək əksər Qərb ölkələri gəlmələrə qarşı assimilyasiya və izolyasiya siyasəti həyata keçirməklə titular xalqın mədəniyyətini qorumağa çalışırdılar. Ancaq çox keçmədi ki, bunun doğru xətt olmadığı, digər bütün azsaylı xalqlara qarşı siyasi haqsızlıq və qeyri-demokratik siyasət xətti olduğu ortaya çıxdı. Bununla da vəziyyətdən çıxış yolu kimi multikulturalizm siyasətinin həyata keçirilməsi zərurətə çevrildi. Əslində, bu siyasət gəlmələrin Qərbin vahid dəyərlər sisteminə daxil olmasına və sahib olduqları dəyərlərin isə bu dəyərlər sistemində əriyib yox olmasına xidmət edirdi. Lakin gedişat bumeranq effekti ilə "Köhnə qitə"nin özünü vurdu: fərqli mədəniyyət daşıyıcısı olan miqrantları təklif edilən "universallıq modeli"nə tam uyğunlaşdırmaq mümkün olmadı. "Əridici qazan" (melting pot) adlandırılan amerikan modelindən fərqli olaraq, Avropada mozaik cəmiyyət yaratmaq arzusu puç olmağa məhkum idi. Bunun əsas səbəbi isə "Köhnə qitə"də dominant etnosun yalnız öz mədəni və dini dəyərlərinə üstünlük verməsi idi. Onların fikrincə, miqrantlar qısa müddətdə daxil olduqları cəmiyyətin tərkib hissəsinə çevrilməlidirlər, gəlmələrin fərqli davranışları, əxlaq normaları Qərb dəyərləri ilə uzlaşmadığı üçün qəbuledilməzdir. Bu problem təkcə birinci deyil, hətta ikinci və üçüncü nəsil miqrantlarla da yaşanırdı və bütün bunlar yürüdülən multikultural siyasətdə nəyinsə çatışmadığını göstərdi. Bunu Almaniyanın Kansleri Angela Merkel də etiraf etmişdi: "1960-cı illərdə biz xarici işçi qüvvəsini Almaniyaya dəvət edəndə elə bilirdik ki, onlar qayıdıb gedəcəklər. Lakin bu baş vermədi və bizim multikulturalizm siyasətimiz iflasa uğradı". Fransanın keçmiş prezidenti Nikola Sarkozi isə multikulturalizmin məğlubiyyətə uğramasında aparılan yanlış siyasəti deyil, fərqli mədəniyyət daşıyıcılarını, xüsusən də İslam həyat tərzini ittiham edirdi: "Kimsə Fransaya gəlirsə, fransız xalqının bir hissəsi olmalıdır, əgər bunu istəmirsə, burda ona yer yoxdur. Fransızlar öz dəyərlərinə yenidən baxmaq fikrində deyillər, insanların küçələrdə ibadət etməsini, qızların məktəbə getməsinin qadağan edilməsini, qadın və kişilərin bərabərliyinə dair dəyərləri itirmək istəmirlər". Burada zəruri bir xatırlatmaya ehtiyac vardır. Sarkozi



etnik mənsubiyyətinə görə yəhudidir və onun rəhbərlik etdiyi ölkədə yəhudilərə vətəndaşlıq hüququnu yalnız XIX əsrin sonlarında vermişdilər.

Bütün təhlillər və tarixi faktlar göstərir ki, Avropada multikulturalizmin böhran yaşaması, süquta uğraması yanlış siyasətin nəticəsidir. Axı öz iqtisadiyyatını gücləndirmək məqsədi ilə xaricdən işçi qüvvəsini dəvət etmək və bir müddət sonra onlara qarşı ayrı-seçkilik siyasəti aparmaq hansı humanist, multikultural dəyərlərlə bir araya sığır? Həmin işçi miqrantların sahib olduqları milli-mənəvi dəyərlərdən imtina edərək titular xalqın dəyərlərini mənimsəməsi multikultural siyasətin əsas qayəsi, təntənəsi hesab olunursa, biz anlayış etibarı ilə "multikulturalizmin əkiz qardaşı" sayılan tolerant yanaşmadan necə söhbət aça bilərik?

**Azərbaycan multikulturalizmi**

Türklərin, udinlərin, ingiloyların, qrızların, xınalıqların, buduqların, tatların, talışların, ləzgilərin, yəhudilərin, rusların və s. xalqların və millətlərin nümayəndələrinin əsrlərdir birgə yaşadığı Azərbaycan isə bu gün Qərbin hələ də formalaşdırmağa çalışdığı multikultural cəmiyyətə nəinki sahibdir, hətta bu qiymətli sərvəti necə qazandığının təcrübəsini də paylaşmaqdadır. Təbii ki, bu mühiti xalqımızın unikal birgəyaşayış normalarını həyat tərzinə çevirməsi və dövlətimizin bu sahədə apardığı qətiyyətli siyasət yaradıb. Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycanda multikulturalizmin dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider hakimiyyətə qayıdışından sonra ölkəni nəinki xaosdan, vətəndaş müharibəsindən qurtardı, eyni zamanda burada əsrlərdir yaşayan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları ölkənin Ana Qanununda təsbit olundu.

Bu gün milli siyasət konsepsiyası BMT-nin "İnsan haqları ümumi deklarasiyası", Avropa Şurasının "Əsas azadlıqların və hüquqların qorunmasına dair konvensiyası", BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı", "Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə İclasın Yekun Aktı", "ATƏT-in insan meyarları üzrə Konfransının Kopenhagen sənədi", Avropa Şurasının "Milli azlıqların müdafiəsi üzrə Çərçivə Konvensiyası", Müstəqil Dövlətlər Birliyinin üzvləri tərəfindən qəbul edilmiş "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi üzrə konvensiya" və s. kimi beynəlxalq sənədlərə əsaslanan ölkəmizdə "Azərbaycan Respublikasında yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dilinin və mədəniyyətinin inkişafına dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir. Başqa sözlə, Ulu Öndər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı milli azlıqların qorunması siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Konstitusiya və qanunların verdiyi bərabər hüquq və imkanlardan istifadə edərək, müxtəlif millətlərin nümayəndələri sosial həyatın ayrı-ayrı sahələrində işləyərək ölkəmizin tərəqqisinə layiqli töhfələr verirlər.

Respublikamızın tolerant və multikultural dəyərlərə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar, tədqiqatçılar, alimlər, politoloqlar tərəfindən araşdırılaraq öyrənilir. Prezident cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi, Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, dünyanın bir sıra ölkəsində Azərbaycan multikulturalizmi fənninin tədris edilməsi dövlətimizin sözügedən mövzuya münasibətinin bariz nümunələrindəndir. Dövlət başçısının IV Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirdiyi, "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir" fikirləri də ölkə rəhbərinin mutlikulturalizmə böyük önəm verdiyinin və onu dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab etdiyinin göstəricisidir. Azərbaycan multikulturalizminin istər ölkə daxilində, istərsə də ölkə xaricində təbliği və gücləndirilməsindən danışarkən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin gördüyü işləri də xüsusi vurğulamaq lazımdır.

Dövlətin müxtəlif konfessiyalara eyni münasibət bəsləməsi, azsaylı xalqların müxtəlifliklərini qoruması, heç birini digərindən fərqləndirməməsi dinindən, milliyyətindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə vətəndaşları arasında dostluq, qardaşlıq münasibətinin güclənməsinə xidmət edir. Azərbaycan bu səmimi siyasətini beynəlxalq müstəvidə də həyata keçirir və bu səbəbdəndir ki, cənab İlham Əliyevin də dediyi kimi, Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir: "Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimaiyyətə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük. Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik".

**Amil Cavadov,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin**
**Ümumi şöbəsinin müdiri**

# MÜXTƏLİFLİK ZƏNGİNLİYİMİZ,

## Bakı isə bu zənginliyin nüvəsidir

Azərbaycan müxtəlif dinlərin nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadığı bir ölkədir. Ölkəmizdə tarixən tolerant cəmiyyətin bərqərar olması burada məskunlaşmış azsaylı xalqlara və etnik qruplara öz varlığını qoruyub saxlamağa imkan vermişdir.

Azərbaycanın tarixi inkişaf xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə Bütpərəstlik, Zərdüştilik, Yəhudilik, Xristianlıq, İslam və bir çox başqa dini inanclar ölkədə müəyyən dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmiş, dini həyatın özəlliyini şərtləndirmişdi. Müxtəlif dövrlərdə və bu gün də Bakı şəhərində mövcud olan Xristianlıq, İudaizm, İslam və digər dinlərə mənsub tarixi, dini memarlıq abidələri paytaxtımızın timsalında Azərbaycandakı tolerantlıq mühitinin əyani göstəriciləridir.

Bunlardan biri Bakının Suraxanı ərazisində yerləşən Atəşgahdır. Erkən orta əsrlərdə bura öz odu-alovu ilə atəşpərəst əhalinin müqəddəs ziyarətgahı hesab olunurdu. Məbədin kahinləri müqəddəs alovu gün ərzində tez-tez yoxlayıb, onu sönməyə qoymurdular. Bu ənənə əhalinin İslam dinini qəbul etməsindən sonra unudulmağa başlamışdır.

Bu gün ölkəmizdə tarixi, dini abidələrə xüsusi diqqət göstərilir, məscidlər, kilsələr, sinaqoqlar təmir edilir, yenidən qurulur. Azərbaycan hökuməti dini vəziyyəti daim nəzarətdə saxlamaq, qarşıdurma meyillərinin qarşısını almaq, sağlam dini maarifləndirmə aparmaqla yanaşı, ölkədə milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına xüsusi önəm verir, dini etiqad azadlığının təmin olunması, dindarların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsi üçün hər cür şərait yaradır, onlara lazımi qayğı göstərir. Ölkədə dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə onlara mütəmadi maliyyə yardımı ayrılır. Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir.

Ölkəmizdə vətəndaşların dini etiqad azadlığı yüksək səviyyədə təmin olunmuş, insanların dini inanclarını rahat şəkildə yaşamaları üçün hərtərəfli şərait yaradılmışdır. Belə ki, "Dini etiqad azadlığı" haqqında Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə dini mərkəz olan Qafqaz Müsəlmanları İdarəsi ilə yanaşı, dinə birlikdə ibadət etmək və digər dini tələbatı ödəmək məqsədilə könüllülük prinsipi əsasında birləşmiş dindarların iştirakı ilə yerli dini qurum olan icmalar təsis edilmişdir. Zamanın tələbinə uyğun olaraq adıçəkilən qanuna müxtəlif vaxtlarda dəyişiklik edilərək dini etiqad azadlığının səmərəli şəkildə təmin edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. 2011-ci ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə yaradılmış Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini icmalara mütəmadi olaraq metodiki köməklik göstərir, onların dövlət təşkilatları ilə qarşılıqlı əlaqələrini tənzimləyir.

Ölkəmizdə mövcud olan 700-dən çox dini icmanın İslam təmayüllü olanları qanunvericiliyin tələblərinə uyğun olaraq yalnız məscidlərdə fəaliyyət göstərirlər. Hazırda Bakı şəhərində 137 məscid var. Məscidlərin fəaliyyəti, dövlət-din münasibətlərinin tənzimlənməsi, dövlət qurumları ilə əməkdaşlıq, habelə maarifləndirmə işinin təşkili baxımından dini icmaların böyük əhəmiyyəti vardır. Təcrübələr göstərir ki, qeydiyyata alınmış rəsmi dini icması olan məscidlər dövlət maraqlarını nəzərə almaqla milli-mənəvi dəyərlərimizin təbliğində aktiv iştirak edir, yerləşdiyi ərazinin dini durumuna müsbət təsir göstərir və sağlam dini maarifçilik istiqamətində səmərəli fəaliyyət göstərirlər.

Məscidlərlə yanaşı, yeni inşa olunmuş, yaxud bərpa edilmiş sinaqoq, kilsə və digər ibadət yerləri də şəhərimizi mədəni baxımdan zənginləşdirir. Məsələn, 2010-cu ildə Bakı şəhərində aparılan yenidənqurma və əsaslı bərpa işləri ilə əlaqədar dağ yəhudiləri üçün yeni sinaqoqun inşasına ehtiyac yaranmış, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və qayğısı ilə onlar üçün yeni ibadət ocağı inşa edilmiş, 5 aprel 2011-ci ildə sinaqoqun rəsmi açılış mərasimi keçirilmişdir.

Bundan başqa, Avropada ən böyük sinaqoqlardan biri hesab edilən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılmışdır. Sözügedən ibadət yeri son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır. Ümumiyyətlə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra buradakı yəhudi icması beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar.

Xristianlıq ölkəmizdə hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə yayılmışdır. Ölkəmizdə Xristianlığın bu gün pravoslavlıq, katoliklik və protestantlıq məzhəbləri, həmçinin müxtəlif sektant icmaları mövcuddur.

Ölkəmizdəki pravoslavların sayı müsəlmanlardan sonra ikincidir. Onu təmsil edən ən böyük və nüfuzlu qurum Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasıdır. Bakının mərkəzində yerləşən, gözəl memarlıq üslubu ilə seçilən Jen Mironosets Baş Kafedral kilsəsi Yeparxiyanın baş məbədi sayılır. Hazırda Bakıda 3 pravoslav kilsəsi fəaliyyət göstərir. Bunlardan biri - Müqəddəs Məryəmin Miladı baş kilsəsi 1999-2001-ci illərdə bərpa olunmuşdur.

Bakıda ilk Roma-katolik prixodu isə XIX əsrin 50-ci illərində rus ordusu tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar yaradılmışdır. XX əsrin sonlarında Bakıda Roma-Katolik icması yenidən bərpa olunmuş, 2000-ci ildə isə icmaya xüsusi bina ayrılmış və kilsəyə çevrilmişdir.

Bu gün İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan bu dinin yayılmasında, intibahında mühüm rol oynamışdır. İslam dünyasının qədim şəhərlərindən sayılan Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Son illər Azərbaycan dövlətinin İslam dəyərlərinə dəstəyi, xüsusi qayğısı nəticəsində bir çox ibadət evləri, məscid və ziyarətgahlar təmir-bərpa edilmiş, yeniləri tikilmişdir. Bunların arasında 26 dekabr 2014-cü ildə Bakıda açılışı olan Heydər məscidini xüsusi qeyd etmək lazımdır. Belə ki, 2016-cı ilin yanvar ayında "Multikulturalizm ili" çərçivəsində Bakıda məhz Heydər Məscidində dünyada sünni-şiə məsələsinin süni şəkildə qabardıldığı bir zamanda şiələrlə sünnilər vəhdət namazı qılmaq üçün bir araya gəlmişdilər. Dünyada ilk dəfə olaraq vəhdət namazı adlandırılan bu namazda məzhəbindən asılı olmayaraq bir bütün müsəlmanlar bir yerə yığılaraq, eyni vaxtda bir sırada namaz qılmış, dualar etmişdilər. Bu mühüm tarixi hadisə təkcə Azərbaycan, İslam tarixində deyil, ümumiyyətlə, bütün dünya dinlərinin tarixində qalacaq bir hadisədir. Heydər məscidində qılınan vəhdət namazı həm də dünyaya önəmli bir mesaj idi ki, məzhəb ayrılıqları insanları ayırmalı deyil. Məzhəb müxtəliflikləri insanları qarşılıqlı şəkildə mədəni, mənəvi cəhətdən zənginləşdirə bilər, nəinki bir-birinə düşmən edə bilər.

İcmalar dini fəaliyyətdən əlavə, sosial-ictimai tədbirlərdə iştirak edir, cəmiyyətin aparıcı qüvvəsi kimi taleyüklü məsələlərdə öz mövqelərini ortaya qoyurlar.



Dini icmaların fəaliyyətində dönüş nöqtələrindən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı olmuşdur. Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə cənab Prezident tərəfindən dini icmalara maliyyə yardımı ayrılmışdır. Mütəmadi ayrılan maliyyə yardımı ilə dini icmalar tərəfindən müxtəlif layihələr və maarifləndirmə tədbirləri keçirilməkdədir.

Son illər ölkə ərazisində, eləcə də Bakı şəhərində dövlət-din münasibətlərinin tənzimlənməsi çərçivəsində bir neçə istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, dini radikalizm və ekstremizmlə inzibati müstəvidə aparılan mübarizə çərçivəsində radikal dini cərəyan nümayəndələrinin qeyri-qanuni toplaşdıqları və aktiv təbliğat apardıqları bir sıra ibadət yerlərinin fəaliyyəti qanunvericiliyə uyğun olaraq dayandırılmışdır. Həmçinin Bakı şəhəri ərazisində dini mağazalarda mütəmadi keçirilən reydlər nəticəsində qanunsuz şəkildə satışı həyata keçirilən dini ədəbiyyatların, mal və məmulatların aşkarlanması, ideoloji təbliğat növü hesab ediləcək nümunələrin ləğvi üçün hüquqi tədbirlər görülmüşdür.

Dini maarifləndirmə işinin təşkili ilə bağlı görülən tədbirlər çərçivəsində isə paytaxt ərazisində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərində, ali məktəblərdə, o cümlədən məscidlərdə mütəmadi görüşlər keçirilmiş, seminar və konfranslar təşkil edilmişdir. Dini radikalizmin və ekstremizmin törətdiyi fəsadlardan bəhs edən "Fitnə" və "Şəhadət" sənədli filmlərinin orta və ali təhsil müəssisələrində, müxtəlif idarə və təşkilatlarda nümayişi isə böyük ictimai marağa və təqdirə səbəb olmuşdur.

Beləliklə, cənab Prezidentin də dediyi kimi, "Azərbaycanda aparılan siyasət milli maraqlara söykənir. O ölkələrdə ki, siyasət milli maraqlara söykənir, o ölkələrdə sabitlik də, inkişaf da olacaqdır".

**Anar KAZIMOV,**
**Bakı şəhəri üzrə şöbənin müdiri**

# CƏMİYYƏT və DİN

№ 10 (315) / OKTYABR 2017-ci il


# DQİDK yanında İctimai Şuranın üzvlüyünə namizədlərin irəli sürülməsinin vaxtı elan edilib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, Komitənin fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin etmək məqsədilə Dövlət Komitəsi yanında İctimai Şuranın yaradılması prosesinə başlanılıb.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2.1-ci bəndini nəzərə alaraq, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin 207 nömrəli, 05.10.2017-ci il tarixli əmri ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Seçki Komissiyası yaradılıb. Seçki Komissiyası tərəfindən İctimai Şuranın üzvlərinin say həddi və İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət müəyyən edilib.

Belə ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yanında İctimai Şuranın üzvlüyünə namizədlərin irəli sürülməsi prosesi üçün 12 oktyabr 2017-ci il tarixindən 10 noyabr 2017-ci il tarixinədək qeydiyyat aparılacaq.

Müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

namizədin şəxsiyyət vəsiqəsinin surəti;

namizədin tərcümeyi-halı;

namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surəti.

Bütün bunlardan əlavə, namizəd barədə ətraflı məlumat verən digər sənədlər də təqdim oluna bilər.

Seçki ilə əlaqədar Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə üzrə Dövlət Komitəsinin rəsmi internet poçt ünvanına (press@scwra.gov.az) və ya Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciət edilə bilər.

**Ünvan: Bakı şəhəri, Əhməd Cavad 12**
**Tel: (994 12) 437-31-15**

# Süni peyk Ayın səthində nəhəng tunel aşkar edib



Yaponiya Aerokosmik Məkanın Mənimsənilməsi Agentliyi (JAXA) "Kaquya" süni peykinin Ay ilə bağlı göndərdiyi məlumatların təhlili zamanı onun səthində tunelə bənzər nəhəng boşluğun aşkar edildiyi barədə məlumat yayıb.

Xəbərə görə JAXA həmin tuneldə Ay missiyasının təşkili üçün bazanın yaradılmasının mümkünlüyünü bildirib. Agentlik 2007-ci ildə buraxılmış "Kaquya" orbital zondu tərəfindən radar vasitəsilə təqribən 18 ay ərzində toplanmış məlumatları təhlil edib.

JAXA mütəxəssislərinin məlumatına görə, tunel Marius təpəsi adını almış vulkanik yüksəkliyin altında yerləşir. Tunel təqribən 50 kilometr uzunluğa malikdir və 50 metr diametrində kəsiklə Ayın səthinə çıxır. Onun torpağın altında yerləşməsi burada gündüz və gecə vaxtı temperaturun kəskin dəyişməsinin və kosmosdan gələn radiasiyanın qarşısını alır. Burada tərkibində su olan minerallar da ola bilər.

Yaponiya 2025-ci ildə Aya astronavtlar göndərməyin yollarını araşdırır.

**Yadigar söz**

**Albert Eynşteyn**
*(alman nəzəriyyəçisi)*

**Ön mühakimələri yox etmək, atom nüvəsini parçalamaqdan daha çətindir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Noyabr - 2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:48 | 07:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 05:49 | 07:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 05:50 | 07:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 05:51 | 07:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 05:52 | 07:14 | 12:24 | 15:52 | 17:48 | 18:50 |
| 6 | 05:53 | 07:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 05:54 | 07:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 05:55 | 07:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 05:56 | 07:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 05:57 | 07:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 05:58 | 07:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 05:59 | 07:22 | 12:24 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 06:00 | 07:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 06:01 | 07:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 06:02 | 07:26 | 12:25 | 15:43 | 17:39 | 18:42 |
| 16 | 06:03 | 07:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 06:04 | 07:28 | 12:25 | 15:41 | 17:37 | 18:41 |
| 18 | 06:05 | 07:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 06:06 | 07:31 | 12:26 | 15:40 | 17:36 | 18:40 |
| 20 | 06:07 | 07:32 | 12:26 | 15:39 | 17:35 | 18:39 |
| 21 | 06:08 | 07:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 06:09 | 07:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 06:10 | 07:35 | 12:27 | 15:38 | 17:34 | 18:38 |
| 24 | 06:11 | 07:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 06:12 | 07:37 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 26 | 06:13 | 07:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 06:14 | 07:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 06:15 | 07:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 06:16 | 07:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 06:17 | 07:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20**.

* *Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Kanadada "gələcəyin şəhəri"nin yaradılması planlaşdırılır



Məlumata görə, bu, tam olaraq sürücüsüz ictimai nəqliyyatın və robot kuryerlər texnologiyasının olacağı yaşayış yeri olacaq.

Layihəni "Google" şirkətinin sahibi olan "Alphabet Inc." Korporasiyası reallaşdırmaq niyyətindədir. Korporasiya şəhərdə bir sıra perspektivli layihələr reallaşdırmağı planlaşdırır. Bura pilotsuz ictimai nəqliyyat, adaptasiya edilmiş işıqforlar, modul evlər və robot kuryerləri əhatə edəcək.

"Bu, bizim üçün sadə bir layihə olmayacaq. Bu, texnologiyaların insan həyatını necə dəyişə biləcəyi ilə bağlı təxminən onilliklərlə yaranmış düşüncələrin nəticəsidir", - deyə "Alphabet" korporasiyasının Direktorlar Şurasının sədri Erik Şmidt bildirib.

Artıq Kanadanın baş naziri Castin Tryudo korporasiyanın bu təşəbbüsünü dəstəkləyib. O qeyd edib ki, buna bənzər layihələr gələcəkdə daha təmiz, ağıllı, ekoloji şəhərlərin inşasına kömək olacaq. Qeyd edilir ki, təkcə layihənin ilkin mərhələsinin inşası "Alphabet" korporasiyasına 50 milyon dollara başa gələcək.

## Dini qurumların dövlət reyestr məlumatı
## Ləğv olunan dini icma

**Masallı şəhər "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 06.10.2005-ci il**
**Qeydiyyat №-si: 1305A1-334**

Masallı şəhər "Cümə" məscidi dini icması təsisçilərinin 07.09.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 02 oktyabr 2017-ci ildə qeydə alınıb.**


**Baş redaktor Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV *(Məsul katib)*.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 365

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894